Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



**Gələcəyimiz olan uşaqları hüquqları ilə qoruyaq**

20 noyabr - Ümumdünya Uşaq Hüquqları Günü münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı -2023**

Tərtibçi : Aynurə Əliyeva

İxtisas redaktoru və buraxılışa məsul: Şəhla Qəmbərova
*Əməkdar Mədəniyyət işçisi*

Redaktor: Ruhiyyə Məmmədli

**“Gələcəyimiz olan uşaqları hüquqları ilə qoruyaq”** – 20 noyabr Ümumdünya Uşaq Hüquqları Günü münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed.: Aynurə Əliyeva; ix.red. və burax.məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.-Bakı, 2023.-74s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023.**

## Tərtibçidən

1989-cu il noyabr ayının 20-də BMT-nin Uşaq Hüquqları Konvensiyası qəbul edildi. Bu konvensiya uşaqların hüquqlarının qorunması sahəsində ən mükəmməl beynəlxalq sənəddir. Konvensiyaya 189 ölkə qoşulub. Azərbaycan da bu ölkələr sırasındadır. BMT-nin 1989-cu ildə qəbul etdiyi və qısa müddət ərzində bir çox dövlətlər tərəfindən imzalanan Uşaq hüquqları Konvensiyasında belə bir həqiqət öz əksini tapır: hər hansı bir ölkənin gələcəyinə bəslənilən ümidlər onun vətəndaşlarının gənc nəsli ilə bağlıdır. Bu mənada bizim də taleyimiz, gələcəyə xoş ümid və arzularımız bu gün təlim-tərbiyə ocaqlarında təhsil və tərbiyə alan gənclərimizdən asılıdır. Lakin bu, eyni zamanda bizim özümüzdən, yəni bu günkü gənc nəslə necə təlim və tərbiyə verməyimizdən, mövcud təhsil sistemindən, bu sistemin aparıcı qüvvəsi olan pedaqoq-müəllimlərdən , təhsil işçilərindən aslıdır.

Cəmiyyətin həssas və kövrək zümrəsi kimi həmişə yüksək qayğı və nəvazişlə əhatə olunan uşaqların sosial ehtiyaclarının hərtərəfli təmini, onların yüksək mənəvi əxlaqi mühitdə, milli dəyərlər əsasında kamil tərbiyə alaraq layiqli şəxsiyyət kimi yetkinləşməsi zəruri müasir dövrdə hər bir dövlətin üzərinə uşaq hüquqlarının müdafiəsi ilə bağlı yeni vəzifələr qoyur. İnsan hüquqlarını demokratik inkişafın ayrılmaz hissəsi, bəşəriyyətin ədalətli cəmiyyətə qovuşmaq idealının alitəzahürü, vətəndaş cəmiyyətinin yetkinliyinin əsas meyarı kimi qəbul edən hər bir dövlət sağlam gələcəyi naminə körpələrin yüksək soasial-mənəvi mühitdə böyüməsinə çalışır. Uşaqların qayğılarına, problemlərinə beynəlxalq səviyyədə də xüsusi diqqət yetirilir...

Uşaqların hüquqlarını qorumaq, elə onların özlərini qorumaq deməkdir. Onlar isə hər bir ölkənin, hər bir xalqın, bütövlükdə bütün bəşəriyyətin gələcəyidir. Bu həqiqəti yer üzündə yaşayan hər bir kəs bütün qəlbi, vicdanı və ağlı ilə dərk etməlidir.

20 noyabr Ümumdünya Uşaq Hüquqları günüdür. Bu münasibət ilə vəsait işləməyi özümüzə borc bildik. Böyük fəxarət və maraq hissi ilə yazdığımız bu vəsait iki hissədən ibarətdir. I hissə **"Gələcəyimiz olan uşaqları hüquqları ilə qoruyaq"** adlanır və bu əlamətdar günün yaranma tarixindən bəhs edir. II hissədə isə **"Uşaqlar bizim gələcəyimizdir"** adlanır və kitabxanada təşkil olunan tədbirlərdən söhbət açılır.

## Giriş

Bu gün Ümumdünya Uşaq Hüququları günüdür. 1954-cü ildə BMT Baş Məclisi bütün dünyada uşaqların rifahının yaxşılaşdırılmasına yönəldilən fəaliyyətə həsr edilən bu günü bütün dünya ölkələrinə qeyd etməyi məsləhət görüb. 1959-cu il noyabrın 20-də Baş Məclis Uşaq hüquqları Bəyannaməsini, 1989-cu ilin həmin günündə isə Uşaq hüquqları haqqında Konvensiyanı qəbul edib. Bu münasibətlə hər il noyabrın 20-si Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu günü xüsusi tədbirlə qeyd edir.

Uşaq hüquqları Konvensiyası – BMT tərəfindən qəbul edilmiş bir saziş olaraq, dünyanın hər bir yerində yaşayan uşaqlara konvensiya ilə müəyyən edilmiş hüquqları təmin edir. Konvensiya uşaqların yaşaması və inkişafı üçün zəruri olan minimum standartları müəyyən edir.

Uşaq hüquqları Konvensiyasının 54 maddəsinin hər birində ayrı-ayrı hüquqlardan danışılır. Burada inkişaf

hüquqları, müdafiə hüquqları, iştirak hüquqları, yaşamaq hüquqları əhatə olunur.

İnkişaf hüquqları dedikdə, uşaqların təhsil almaq, oynamaq və istirahət etmək, məlumat almaq və dini hüquqları nəzərdə tutulur. Müdafiə hüquqları isə uşaqları müxtəlif zorakılıq, müharibələr və uşaq əməyinin istismarından, narkotik maddələrin istifadəsindən qoruyur. Bunlardan əlavə Konvensiyanın azad fikir söyləmək, cəmiyyətdə fəal iştirak etmək, yaşamaq və bunun üçün lazımi tələbatları təmin etmək hüquqları da təmin edir.

*20 noyabr Ümumdünya Uşaq Hüquqları Günü məqsədilə kitabxanada kitab sərgisi keçirilə bilər.*



















OLİVER
TVİSTİN
MACƏRALARI


Mark Tven
Şahzadə
və Dilənçi
DÜNYA UŞAQ ƏDƏBİYYATI


Mənim ilk klassik əsərim
Anton Çexov
Kaştanka
və digər hekayələr
3 alma


Edit Nesbit
Dəmiryolu
uşaqları
roman


„Uşaq hüququ”







**Jest dilinə tərcümə edilən "Uşaq Hüquqları Konvensiyası" əsasında hazırlanmış elektron kitab**




https://www.youtube.com/watch?app=desktop&v=FgQFVATgHdU

Sərgiyə müxtəlif başlıqlarlar verilir: “Uşaqların hüquqlarını qorumaq, onların özlərini qorumaq deməkdir”, “Hüquq-Azadlığımızın ölçüsü”, “İnsan hüquqlarına hörmət uşaqlara münasibətdən başlayır”, “Uşaq hüquqları və uşaq şəxsiyyəti diqqət mərkəzindədir”, “Uşaq hüquqlarının etibatrlı müdafiəsi”, “Hec bir uşağı nəzərdən qaçırmayaq”, Hüquq anlayışı və mahiyyəti”, “Hüquq necə yaranıb”, “Gələcəyimiz olan uşaqları hüquqları ilə qoruyaq”, “Hər bir uşağın müdafiə olunmaq hüququ var, “Uşaqlar bizim gələcəyimizdir”, “Uşaqlara sağlam münasibət milli strategiyaya çevrilməlidir”, “Sağlam gələcəyə qoyulan sərmayə” və s. Bundan başqa sözügedən əlamətdar gün ilə bağlı müxtəlif şəkillər və görkəmli insanların Ümumdünya Uşaq Hüququları günü haqqında söylədikləri sitatlar sərgidə yer alır.

20 noyabr Ümumdünya Uşaq Hüquqları Günü ilə əlaqədar olaraq, kitabxanada bir sıra tədbirlər; oxucu konfransı, dəyirmi masa, oxucularla söhbət, rəsm, şeir və digər müsabiqələr, ədəbi-bədii gecə və s. keçirilə bilər. Bu tədbirlərdən biri də tələbələr arasında keçirilən *"Hec bir uşağı nəzərdən qaçırmayaq"* adlı **"dəyirmi masa"**dır. Tədbirdə pedaqoqlar, psixoloqlaqr, hüquqşunas və hüquq məsləhətçiləri, alimlər, ali məktəb tələbələri və s. qonaqlar iştirak edir. Ilk olaraq kitabxanaçı hər kəsi salamladıqdan sonra mövzuya uyğun olaraq çıxışa başlayır və əlamətdar gün haqqında məlumat verir:

***Kitabxanaşı:*** Bəşər tarixində elə böyük filosof, mütəfəkkir tapmaq çətindir ki, o, hüquq, onun mahiyyəti barədə fikir söyləməsin. Hüquq, onun fəlsəfəsi ilə bağlı suallara insanlar həmişə cavab axtarıb. Müxtəlif dövrlərdə hüquq və onun mahiyyəti müxtəlif cür şəhr edilib. Amma bir həqiqət bütün dövrlərdə etiraf edilib: hüquq ictimai qayda, nizam deməkdir. Müasir dövrdə insan azadlığının ölçüsü kimi qəbul edilir. İnsan öz hüquqları çərçivəsində azaddır. Eyni zamanda, insan öz hüquqlarını dərk etməkdə azadlığı əldə edir.

Çağdaş dövrümüzdə də hər bir insanın öz hüquqlarını bilməsi olduqca vacibdir. Bəşər övladı əsas insan hüquq və azadlıqlarının tanınmasına, onların qorunmasına təminat verilməsinə uzun mübarizədən sonra nail olub. Amma bu gün də o mübarizə dayanmayıb. Ümid edirik ki, bu vəsait də uşaq hüququnun mahiyyətini anlamaqda, onun mənbələri, funksiyaları barədə biliklər əldə etməkdə sizlərə yardımçı olacaq, gələcəyimiz olan uşaqlar öz hüquqlarını reallaşdırmaq uğrunda mübarizədən çəkinməyəcək.

Müstəqil Azərbaycan Respublikasının normatiov-hüquqi aktlarında əsas insan eləcə də uşaq hüquq və azadlıqları təsbit

olunub, onların qorunmasına təminat verilib. Hər bir Azərbaycan vətəndaşı öz hüquqlarının qorunmasında səylərini əsirgəməməlidir.

*Hüquq nədir, anlayışı və mahiyyəti*

Hüquq — davranışı tənzimləmək üçün sosial və ya hökumət institutları tərəfindən yaradılmış və tətbiq edilə bilən qaydalar toplusu, onun dəqiq tərifi uzun müddətdir müzakirə olunan bir məsələdir.

"Hüquq" sözü ərəbcədən "haqq" sözünün çoxluğunu ifadə edir. Bu söz ingilis dilində "right" sözünə uyğun gəlir.

Müasir hüquq ədəbiyyatında hüququn ümumi qəbul edilmiş anlayışı yoxdur. Müxtəlif nəzəriyyələrdə hüquqa fərqli tərif verilmişdir.

Hüquq ən mürəkkəb ictimai hadisələrdəndir. Hüquq anlayışının öyrənilməsi, onun mahiyyətinin izahının verilməsi əsrlərdən bəri davam edir. Bu da təbii və başadüşüləndir. Hüquq baxışlarda insanların cəmiyyət, onun meyarları və mənəvi dəyərləri barədə təsəvvürləri barədə əks olunur. İnsan cəmiyyəti inkişaf etdikcə, onun idealları və təsəvvürləri, insanların həyat tərzi dəyişdiklcə hüquqa baxışlar da dəyişəcək. Sivilzasiya tarixi boyu hüquq haqqında onlarca hüquqi təlim yaranıb. Bəşər övladının müdrikləri əsrlər boyu hüquq fünomenini öyrənilməsi onun mahiyyətinin açılması üzərində işləyiblər. Keçmişin hüquqi məsələləri elmi fikrin insan münasibətlərinin lap dərin qatlarına nüfuz etmək cəhdləri ilə seçilirlər.

Hüquq haqqında bütün baxışlar bir ümumi əsasa söykənir: insanlar üçün hüquq həmişə cəmiyyətdə müəyyən qayda, nizam kimi çıxış edib. Bu ümumi əsasdan sonra fikir ayrılıqları başlayıb. Bu fikir ayrılıqları ilk növbədə hüququn məzmunu və formaları ilə bağlıdır. Hüquq haqqında cəmiyyətdə müəyyən qayda kimi danışanda bu qaydanın

cəmiyyətin hansı təbəqələrinin mənafeyini ifadə etdiyi, bunun arxasında hansı təbəqələrin durduğu, bu qaydanın kimin xeyrinə durduğu bu qaydanın kimin xeyrinə, kimin əleyhinə yönəlməsi ilə bağlı suallar meydana çıxır. Burada biz hüquq deyəndə onun sosial keyfiyyətini, cəmiyyətin bu və ya digər təbəqələrinə xidmət etdiyini nəzərdə tuturuq. Dövlətin və eyni zamanda, hüququn meydana gəlməsi ilə bağlı nəzəriyyələri ümumiləşdirdikdə əsas iki fərqli nöqteyi-nəzərin mövcud olduğunu görürük.

Birinci nöqteyi-nəzərə görə, hüquq ilk növbədə zor tətbiq etməklə cəmiyyətdəki ziddiyyətlərin aradan qaldırılması və qayda-qanunun bərqərar edilməsi üsulu kimi başa düşülür. Bu yanaşmaya görə, hüquq və dövlət cəmiyyətin bir təbəqəsinin öz iradəsini cəmiyyətin digər üzvlərini yeritmək üçün bir alətdir. Burada müəyyən çərçivədə hüquq və dövlətin ümumxalq xarakteri də qəbul olunur, amma bu, ikinci dərəcəli amildir. İkinci nöqteyi-nəzərə görə, dövlət və hüquq qayda-qanunu cəmiyyətdəki ziddiyyətlərin aradan qaldırılması, sosial kompromislərin tapılması yolu ilə təmin edir. Bu zaman dövlətin fəaliyyətində hüququn funksiyasında cəmiyyətin müxtəlif təbəqələrin əlaqələndirilmiş maraqları ifadə olunur.

Hüquqi dövlətin mahiyyətini ictimai həmrəylik və kompromis təşkil edir. Bu nöqteyi - nəzər müqavilə nəzəriyyəsi, sosial funksiyalar nəzəriyyəsi, sosial demokratiya təlimləri tərəfindən əsaslandırılıb.

Kitabxanaçının çıxışından sonra qonaqlar sıra ilə öz çıxışlarına keçid alır.

**Hüquq məsləhətçisi:**

*Hüquq necə yaranıb?*

Hüququn yaranması ilə bağlı müxtəlif fikir və nəzəriyyələr var.

*Uşaq hüquqları*

Çağdaş dövrümüzdə uşaqların düzgün tərbiyəsində onların öz hüquqlarını və qanuni mənafelərini müdafiə edən qanunlar, normativ aktlar barədə məlumat almaları olduqca vacibdir. Uşaqların erkən yaşlarından öz hüquqları barədə məlumatlandırılması cəmiyyət və dövlət üçün yararlı olan vətəndaşların yetişdirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq normativ aktlar və Azərbaycanın milli qanunbvericiliyi uşaqların hüquqlarının qorunması baxımından əhəmiyyətli təminatlar verir.

Uşaq hüquqları haqqında qanuna və Ailə Məcəlləsinə əsasən, uşaq dedikdə 18 yaşına çatmamış və hələ tam əmək qabiliyyəti əldə etməmiş şəxslər başa düşülür.

Uşaqların hüquqlarının qorunması tədbirlərinin hüquq normaları şəklində təsbit olunacağı yeni sənədin qəbulu zərurəti meydana çıxdı. 1979-1989 – cu illərdəbir çox dünya ölkələri mütəxəssislərinin iştirakı ilə BMT-nin İnsan Haqları üzrə Kommisiyası Uşaq hüquqlarına dair konvensiyanın mətnini hazırladı. Əvvəlki sənədlərdən fərqli olaraq 54 maddədən ibarət konvensiya uşaqların cəmiyətdə həyatı və vəziyyəti ilə əlaqədar, demək olar ki, bütün məqamları əhatə edir. Konvensiya qəbul edən dövlətlər uşaqlara münasibətdə görüntülər və milli qanunvericilikləri BMT-nin konvensiyasına uyğun şəkildə dəyişdirilməlidirlər. Uşaq hüquqlarına dair konvensiya 20 noyabr 1989-cu illərdə BMT-nin Baş Assambleyası tərəfindən qəbul olunub və 2 sentyabr 1990-cı ildən qüvvəyə minib.

Uşaq hüquqları haqqında bəyannamədə qeyd olunur ki, uşaq mümkün olan hallarda öz valideynlərinin himayəsində və məsuliyyəti altında, mənəvi və maddi təminat mühitində böyüməlidir. Yox, əgər ən müxtəlif səbəblərdən bu mümkün olmasa, uşaqların dövlət tərbiyəsinə verilməsi və yaxud

övladlığa götürülməsi zamanı ilk növbədə uşaqların maraqlarının əsas götürülməsidir.
Uşaq hüquqlarına dair konvensiyasında bəyan edilir ki, uşaq cəmiyyətdə müstəqil həyata hazırlanmalı və BMT-nin nizamnaməsində göstərilən ideallar ruhunda tərbiyə olunmalıdır. Konvensiya qoşulan dövlətlər hər bir uşağın yaşamaq hüququnu qəbul edirlər. Üzv-dövlətlər uşağın yaşamasını və sağlam böyüməsini maksimum mümkün səviyyədə təmin etməlidirlər. Uşaq doğulandan dərhal sonra qeydiyyata alınır və doğulan andan onun vətəndaşlıq almaq, ad almaq da mümkün olduda öz valideynlərini tanımaq və onların qayğısını görmək hüququ var. Üzv-dövlətlər həmçinin qanunda nəzərdə tutulmayan hallarda uşağın öz valideynlərindən ayrılmamasını da təmin etməyə borcludurlar. Konvensiyaya qoşulan dövlətlər uşağın öz fikrini sərbəst ifadə etmək, düşüncə, din və vicdan azadlığına təminat verirlər. Konvensiyada qeyd olunur ki, üzv-dövlətlər uşağın sərbəst ictimai təşkilatlarda birləşmək və sərbəst toplaşmaq hüququna da təmin verirlər. Sənəddə bəyan olunur ki, üzv-dövlətlər uşaqların hər cür fiziki və psixi təsirlərdən, təhqir və zorakılıqdan, istismardan qorunması üçün bütün zəruri qanunverici, inzibati, sosial və maarifləndirmə tədbirlərini görməlidirlər. Ailə qayğısından məhrum olan uşaqların qayğısına dövlət qalmalıdır. Üzv-dövlətlər uşağın yüksək səhiyyə xidmətlərindən istifadə etmək hüququnu tanıyırlar. Üzv-dövlətlər çalışmalıdırlar ki, heç bir uşaq bundan məhrum olmasın. Uşaqların sosial müdafiə sisteminin verdiyi imkanlardan yararlanmaq hüququ da tanınır. Dövlət bunun üçün məsuliyyəti öz üzərinə götürməlidir. Konvensiyaya qoşulan dövlətlər uşaqların eləcə də təhsil almaq hüququnu tanıyırlar və uşaqların bu hüquqdan bərabərhüquqlu bəhrələnməsi üçün pulsuz və məcburi ibtidai

təhsil sistemini tətbiq edirlər. Həmçinin uşağın yaşına uyğun istirahət, əyləncəli oyun və tədbirlərdə iştirakını, sərbəst şəkildə yaradıcılıqla məşğul olmaq hüququnu da tanıyırlar.
Konvensiya qoşulan dövlətlər 15 yaşına çatmayan uşaqların birbaşa döyüş əməliyyatlarında iştirak etməməsi üçün bütün mümkün olan tədbirləri görməlidirlər.
Azərbaycan Respublikası bu konvensiyaya qoşulub və milli qanunvericilikdə müvafiq dəyişikliklər həyata keçirilib.
Uşaq hüquqlarının qorunmasım ilə bağlı sənədlər sırasında BMT-nin "Yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın qarşısının alınması haqqında BMT-nin əsas prinsipləri" haqqında qətnaməsini qeyd etmək lazımdır. "Bu prinsiplər "Ər-Riyad prinsipləri" adlanır.
***Uşaq psixaloqu:*** Uşaqlar bizim gələcəyimizdir. Uşaqlar xəyalların, arzuların, ümidlərin zərif tumurcuğu, dövlət içində kiçik dövlət sayılan ailə qalasının misilsiz sevinc qaynağı, qoruyucu mələyi, cənnət qoxusunu dünyada yayan yeganə gül, millətin gələcəyi və ilahi əmanətdirlər. Uşaqlar gülüşü ilə güldürən, göz yaşı ilə ürəkləri sızladan, saf baxışları ilə düşündürən, qucaqları isidən, sevildikcə sevilən fidanlardır. Onların hər nəfəsində bir həyat, bir dünya, bir aləm yaşayır. Ailənin könül meyvəsi, ruh qaynağı sayılan uşaqlar dünyaya gəlişi ilə qəlbləri həyəcanlandıraraq, evlərə sevinc bəxş edir. Valideynlərin saf məhəbbətlə sevdiyi uşaqlar dünyanın ən pak və pak olduqları qədər də müqəddəs varlığıdır. Elə buna görədir ki, ulularımız onlara böyük qayğı bəsləyib və bəşəriyyətə də bu məsumluğu qoruyub saxlamağı, sevməyi, düzgün tərbiyələndirməyi, həyat yolunda büdrəməməyi öyrədiblər. Analarımız laylalarında, oxşamalarında körpələrini dünyanın ən müqəddəs varlığı kimi sevər, onları ən qayğıkeş sözlərlə əzizləyərlər. Laylay, beşiyim, laylay, evim-eşiyim, laylay. Sən yat şirin yuxuda,

çəkim keşiyin, laylay! Anarın dilindən süzülən bu laylalar gül çöhrəli, bal dodaqlı, şirin-şəkər balalrımız üçün çalınıb əsrlər boyu.
Uşaq ailənin, xalqın, dövlətin ən qiymətli sərvətidir. Bu qiymətli sərvəti fiziki və mənəvi cəhətdən sağlam, cəmiyyətə faydalı vətəndaş, vətənə sadiq övlad kimi böyütmək çətin və məsuliyyətli olduğu qədər də şərəflidir. Əgər gələcəyimizi bu günün uşaqlarına əmanət ediriksə, onların düzgün tərbiyə olunması, hansı ideyalara qulluq etməsi hər birimizi ciddi düşündürməlidir. Ümummilli lider, siyasi xadim Heydər Əliyev deyirdi: “Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır”.
Doğrudan da belədir. Hər bir millətin gələcəyi uşaqların bu günkü rifah halından asılıdır. Uşaqların cəmiyyət üçün yararlı bir şəxsiyyət kimi formalaşması istiqamətində ən böyük rolu ailə oynayır. Ailə bəşər həyatının ilk müəssisəsi, müqəddəs bir qaladır. Bu qala gələcəyin təminatçısı olan uşaqların təkamül həyatında, sağlam xarakterin formalaşmasında, uşağın xeyirxahlıq və mehribanlıq zirvəsinə yol almasında müstəsna rola malikdir. İlahi əmanətlər olan körpələrin dünyagörüşünü, həyat prinsiplərini, enişli-yoxuşlu həyata hazırlanmasını, dünyaya baxışını və onun uca dəyərlərə yönəldilməsi ailəyə bağlıdır. Ailə digər tərəfdən həm də bir məktəbdir. Bu məktəb nə qədər elmi və mənəvi cəhətdən zəngin, sevgi ilə dolu olarsa, bax o zaman orada böyüyən, boya-başa çatan uşaq cəmiyyət üçün faydalı olacaq. Ailə qalasının və o qalanın təməli olan övaldın qoruyucusu və həyata düzgün hazırlanmasının fədakarı isə anadır. Ana nurlu sözlərilə tərbiyə qaynağı, aydın və məntiqli düşüncələriylə övladının görən gözü, həyatda davranışı ilə ona örnək olan

bir şəxsiyyətdir. Məhz bu səbəbdən “Analarımız savadlı olarsa cəmiyyətimiz savadlı olacaq” deyir müdriklərimiz.
Uşaqların cəmiyyət üçün yararlı formada böyüməsində anaya yardımçı olan başqa bir ailə memarı isə atadır. O, müqəddəs ailə qalasının maddi təminatçısı olmaqla bərabər böyüklüyün, mərdliyin, kişiliyin simvolu və səadətin zəmanətçisidir. Uşaqların təbiətlərini kəşf etmək, arzu və istəklərinin hansı istiqamətə yönəldiyini bilmək valideyinlərin mənəvi borcudur. Çünki uşaqlar bizim gələcəyin ən böyük qurucularıdır. Hər bir valideyin tərbiyədə övladının məsuliyyətli, fəal, vətənpərvər, milli-mənəvi dəyərlərə bağlı yetişməsinə səy göstərməli, digər tərəfdən də böyüklərin sevgisini onların təmiz ruhlarına hopdurmalıdırlar. Bu keyfiyyətə malik uşaqlar böyüdükcə kimsənin haqqını yemədikləri kimi, kimsəyə də öz haqqlarını yedirtməyən vətəndaş kimi böyüyəcək .
Uşaqlar bizim gələcəyimizdir.1İyun bütün dünyada Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi qeyd olunur. 1950-ci ildə BMT Baş Assambleyası tərəfindən təşkil olunan "Qadınların Beynəlxalq Konfransı"nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənib və elə həmin tədbirdə də 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərarı verilb. Dünyanın əksər ölkələrində olduğu kimi, bu gün Azərbaycanda da qeyd edilir. Bu, təsadüfü deyil çünki müasir dövrdə uşaqların problemlərinin həlli, onların hüquqlarının qorunması ən aktual məsələrdən biridir. Uşaqların yüksək qayğı ilə əhatə olunması, əlverişlı mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, onların şəxsiyyət kimi formalaşmasının əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlətin uşaq siyasətinin prioritet istiqamətlərindən biridir. Ulu öndər Heydər Əliyev uşaq hüquqlarının müdafiəsinin

davamlılığı,onun məzmununun zənginləşdirilməsi məqsədilə 1998-ci il 19 may tarixində "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul etmişdir. Qanunda uşaqların http://azkurs.org/mulki-huququn-predmeti-ve-prinsipi.html hüquq bərabərliyi, vicdan, söz və məlumat azadlığı,yaşamaq və inkişaf etmək, tərbiyə almaq şərəf və ləyaqətinin müdafiəsi hüquqları da xüsusi vurğulanır.

1989-cu il noyabrın 20-də BMT tərəfindən qəbul edilən Uşaq hüquqları Konvensiyası uşaqların hüquqlarının qorunması sahəsində dünyada hazırlanmış ən mükəmməl beynəlxalq sənəddir. Hazırda Demokratik ölkə olan Azərbaycan 1992-ci il iyunun 21 dən bu Konvensiyaya qoşulmuş 189 ölkənin sırasındadır. Ümumiyyətlə, Uşaq hüququnu qorumaq üçün ilk təşəbbüs 1924-cü ildə Millətlər Cəmiyyətinin hazırladığı "Cenevrə" bəyannaməsi ilə yaranmışdır. 1959-cu ildə isə BMT Baş Məclisi "Uşaq Hüquqları Bəyannaməsi"ni qəbul etmişdir. Lakin bəyannamənin hüquqi qüvvəsi olmadığından 1979-cu ildən təşkilat bu işin həlli ilə bağlı xüsusi işçi qrupu yaradaraq, 1989-cu il noyabrın 20-də rəsmi şəkildə BMT-nin Uşaq Hüquqları Konvensiyasını qəbul etmişdir. Sənəd 1990-cı ildə 20 dövlətin razılığı ilə qüvvəyə minmişdir. Sonrakı mərhələdə isə bütün dövlətlər konvensiyaya qoşularaq, onun prinsip və öhdəliklərini dəstəkləmişlər. Konvensiyanın prinsipinə əsasən uşaq şəxsiyyətidir. Konvensiya bu işə qoşulmuş ölkələri uşaqlara, öz vətəninin sosial-iqtisadi həyatında daha yaxından iştirak etmək üçün şərait yaratmağa çağırır. Burada əsas məqsəd uşaqların xoşbəxt böyüməməri, həmçinin onların rifahı naminə göstərilən hüquq və azadlıqlardan istifadəni təmin etmək, uşaqlar arasında ayrı-seçkiliyə yol verməməkdir. Uşaqlar irqindən, dinindən,

dərisinin rəngindən, cinsindən, əmlak vəziyyətlərindən asılı olmayaraq öz hüquqlarından istifadə etməlidirlər.
Konvensiyanın bu qədər mühüm əhəmiyyət kəsb etməsi bir də onunla izah olunur ki, o, özündə gələcəyi əks etdirir. Uşaqlara məhəbbətlə yanaşan cəmiyyət onların qabiliyyətlərini tam aça bilməyə şərait yaratmaqla onların gələcəyini düşünür və azadlıqlarının təmin edilməsini dəstəkləyir. İntellektual, mədəni, əxlaqi və mənəvi qabiliyyətlərini inkişaf etdirmək üçün uşağa hər bir şərait yaradılır. Məlumdur ki, uşaq hüquqları konvensiyasının yerinə yetirilməsinə beynəlxalq miqyasda Birləşmiş Millətlər Təşkilatının Uşaq fondları – YUNİCEF nəzarəti yerinə yetirir. Bu təşkilatın respublikadakı nümayəndəliyi təhsil, səhiyyə, sahəsində aparılan islahatların təşkilində yardım edir.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasında uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədi ilə 22 dekabr 2008-ci il tarixli sərəncam imzalamışdır. Sərəncama görə, 2009-cu il "Uşaq ili" elan olunmuşdur. Ölkəmizdə uşaq ilinin elan olunması bir daha sübut edir ki, dövlət daima uşaqlara olan qayğını ön plana çəkir və onların xoşbəxt gələcəyini təmin etmək üçün əlindən gələni edir.
Cox zaman insanlar xoşbəxtliyi fərqli yerlərdə axtarırlar. Amma ətraflarına nəzər salsalar xoşbəxtliyi onlara bəxş edəcək varlıqların yanlarında olduğunu görərlər. Həyatımızda bu qədər gözəlliklər olduğunu bilərək gəlin xoşbəxtliyi, sevgini, təbəssümü başqa yerlərdə deyil, bu balaca fidanların gözlərində axtaraq və onların qar kimi bəmbəyaz dünyasını daima sevgi ilə bəzəyək. Çünki bu

körpələr biz böyüklərdən həyatı öyrənməyə çalışır, gələcəkdə kim olacaqlarını ata və analarına, müəllimlərinə, böyüklərə baxaraq öyrənirlər. Gələcəyimizin xoşbəxtlik və sevgi dolu bir dünya olmasını istəyiriksə övladlarımızı düzgün tərbiyə etməliyik.

"Uşaqlar bizim gələcəyimizdir" dediyimiz körpələri pisliklərdən, yalandan, iftiradan uzaq tutsaq, onlara dünyanın necə gözəl bir yer olduğunu, oxumağın, elmin hər insana lazım olduğunu öyrətsək gələcəyimiz əmin əllərdə olar. Çünki sağlam gələcək sağlam gəncliyin çiyinləri üzərində dayanır. Böyük rus yazıçısı Maksim Qorki demişdir: "Uşaqlar bizim sabahkı hakimlərimizdir, dünyagörüşümüzün, əməllərimizin tənqidçiləridir".

Hakim qarşısına cıxmamaq və tənqid olunmamamq üçün gələcəyimiz olan uşqların huquqlarını qoruyaq və onalrı cəmiyyətə xeyirli övlad kimi hazırlayaq. Bayramınız mübarək, əziz fidanlar! Yer üzü sizin varlığınızla, nəfəsinizlə, sevincinizlə, xoşbəxtliyinizlə, saflığınızla bərqərar olur. Siz dünya içində bir aləmsiniz.

**Sərgi ətrafında oxuculıarla söhbət**

Bunun üçün ilk olaraq kitabxanada uşaq hüquqlarından bəhs edən sərgi təşkil olunur. Sərgidə sözü gedən gün və ümumilikdə uşaq dünyasından ibarət kitab, dövri mətbuat yazı nümunələri və görkəmli şəxsiyyətlərin bu əlamətdar gün haqqında söylədikləri kəlamlar yer almaqdadır.

20 noyabr Ümumdünya Uşaq Hüquqları Gününü gənc nəslə tanıtmaq, sevdirmək, milli dəyərlərimizi, tariximizi onlara daha əyani şəkildə göstərmək üçün kitabxanada **"Gəlin hüquqlarımızı bilək"** başlığı altında konfrans təşkil olunur. Konfrans uşaqların hüquqları və onun yaranma, qorunma yollarından bəhs edir.

Kitabxanaçı gələn qonaqları və iştirakçıları salamladıqdan sonra 20 noyabr Ümumdünya Uşaq Hüquqları Gününün yaranma tarixi və s. barədə məlumat verir:

***Kitabxanaçı:*** *Uşaq hüquqları Konvensiyası*

Uşaq hüquqları Konvensiyası (ing. Convention on the Rights of the Child) — 20 noyabr 1989-cu ildə BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmişdir.

Uşaq hüquqları Konvensiyası – BMT tərəfindən qəbul edilmiş bir saziş olaraq, dünyanın hər bir yerində yaşayan uşaqlara konvensiya ilə müəyyən edilmiş hüquqları təmin edir. Konvensiya uşaqların yaşaması və inkişafı üçün zəruri olan minimum standartları müəyyən edir. Konvensiyanın ratifikasiya etmiş bütün dövlətlər bu öhdəlikləri yerinə yetirməlidirlər. Onlar daimi xüsusi təşkil edilmiş Uşaq Hüquqları Komitəsinə hesabat və həyata keçirdikləri bütün işlər haqda məlumat verirlər. Bu Konvensiya uşaqların hüquqlarını təmin edən birinci universal kodeksdir. O, uşaq hüquqlarına dair bütün məsələləri bir sənəddə cəmləşdirib.

Konvensiya uşaqların iqtisadi, sosial, mədəni və hətta siyasi hüquqlara malik olmasını vurğulayır. Əsasən uşaq hüquqlarının qeyri-formal tədris prosesi vasitəsi ilə öyrədilməsi üçün yazılmasına baxmayaraq, bu vəsait çox asanlıqla və müvəffəqiyyətlə məktəblərdə də istfiadə edilə bilər. Bu vəsaitdən istifadə edərək və öz yaradıcılıq qabiliyyətinizi əlavə edərək siz tədris prosesini lazımi istiqamətə yönəldə bilərsiniz. Giriş hissədən sonra siz Konvensiya tərəfindən qorunan hüquqların bölündüyü 4 kateqoriya ilə yaxından tanış olacaqsınız.

Uşaq hüquqları Konvensiyası 54 maddədən ibarətdir. Onların hər biri ayrı-ayrı hüquqlar haqda məlumat verir. Bütün hüquqlar 4 kateqoriyaya bölünə bilər:

İnkişaf hüquqları – bu hüquqlar uşaqların öz potensiallarının tam inkişafına olan ehtiyaclarını təmin edir. Bura, məsələn, təhsil almaq, oynamaq və istirahət etmək, mədəni tədbirlərə cəlb edilmə və iştirak etmə, məlumat əldə etmək, azad fikir və din hüquqları aiddir.
Müdafiə hüquqları – bu hüquqlar uşaqları müxtəlif növ zorakılıq və istismardan qorumalıdır. Bu hüquqlar, məsələn, qaçqın uşaqlara qayğının göstərilməsi, zorakılıq, cəzalandırma, hərbi münaqişələrə cəlb edilmə, uşaq əməyinin istismarı, narkotik maddələrin istifadəsi və istismar kimi məsələləri əhatə edir.
İştirak hüquqları – bu hüquqlar uşaqlara yaşadıqları cəmiyyətdə fəal iştirak etməyə imkan yaradır. Bunlar azad fikir söyləmək, onların həyatlarına təsir göstərən hallarda öz sözlərini demək, birləşmək və assosiasiyalar əmələ gətirməkdir. Uşaqların bacarıqları inkişaf edərkən onların cəmiyyətdə fəal iştirakı və bunun üçün imkanları daha da artır. Bu da məsuliyyətli vətəndaş kimi yetişməkdə onlara yardım edəcək.
Yaşamaq hüquqları – bunlara uşaqların yaşamaq və bunun üçün lazımi tələbatları təmin etmək hüquqları aiddir; həmçinin adekvat yaşayış standartları, qida və tibbi xidmətə malik olmaq kimi hüquqlar da bura aiddir.
**I İştirakçı:** Uşaq hüquqları
Uşaq hüquqları — dünyadakı bütün uşaqların qanunla və ya əxlaqi baxımdan doğulduqları gündən sahib olduqları, təhsil, sağlamlıq, sığınma, fiziki, psixoloji və ya cinsi istismara qarşı qorunma kimi hüquqlarının hamısının birdən təyinində istifadə edilən universal anlayışdır.
Uşaq hüquqları insan hüquqları anlayışının bir hissəsi kimi dəyərləndirilməlidir. Bu gün, dünyanın bir çox yerində mövcud olan insan hüquqları pozuntuları, uşaq ölçüsündə

daha geniş əhatəli və böyüyərək, müdaxilə edilməsi daha çətin bir şəkildə iştirak etməkdədir. Beynəlxalq Əfv Təşkilatının bildirdiyinə görə, az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə əmək istismarı, şiddət, qanundankənar mənfi faktorların daxilində, uşaq hüquqlarının pozulması daha böyük ölçülərdə olur.

Uşaqların yeniyetmələrdən fərqli fiziki, fizioloji, davranış və xüsusiyyətləri olduğu, davamlı böyümə və inkişaf göstərdiyi şüurunun yerləşməsi, uşaqların baxımının bir cəmiyyət problemi olduğu və elmi yanaşmalarla hər kəsin bu məsuliyyəti yüklənməsi lazım olduğu düşüncəsi, Cenevrə Uşaq Hüquqları Bəyannaməsi ilə təsbit edilmişdir. Hazırda uşaq hüquqları ilə əlaqədar olan beynəlxalq sənəd 20 noyabr 1989-cu ildə BMT tərəfindən qəbul edilən və 193 ölkə tərəfindən təsdiq edilmiş olan Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Haqqında Konvensiyasıdır.

Mündəricat

1 Konseptual çərçivə
1.1 Uşaq və uşaq hüquqları konsepsiyası
1.2 Uşaq rifahı
1.3 Uşaq hüquqları Komitəsi
1.4 Uşaq hüquqları Konvensiyası
2 İstinadlar
3 Xarici keçidlər

Konseptual çərçivə

Uşaq və uşaq hüquqları konsepsiyası

Uşaqlar üzərində aparılan tədqiqatlarda ilk növbədə uşaq anlayışından nəyin başa düşülməsi, uşaqların anlayışını böyüklərdən necə fərqləndirməsi göstərilməlidir. İnkişaf etməmiş ölkələrdə mövcud olan anlayışa görə, uşaq potensiyal olaraq ailənin fenomenindən kənarda ailənin iqtisadi inkişafına töhfə verə biləcək potensial işçi qüvvəsi və

ailənin sonrakı çağlarında sosial təminat vasitəsi olaraq görülür.Başqa sözlə, kənd təsərrüfatı cəmiyyətlərində uşaq iqtisadi cəhətdən səmərəli bir vasitədir. Belə cəmiyyətlərdə uşaq bir tərəfdən istehsala töhfə verir və qocalıq dövründə sığorta rolunu oynayır. Uşaq anlayışının sonrakı dövrlərdə dəyişdiyi görülür. Müasir uşaqlıq anlayışının ümumilikdə Qərb cəmiyyətlərində ortaya çıxması 17-ci əsrdən başlayaraq bir sıra dəyişikliklərin nəticəsi olmuşdur.

Uşaq rifahı

Son illər bir çox beynəlxalq təşkilatların, xüsusən də UNİCEF-in səyləri nəticəsində inkişaf etmiş ölkələrin "siyasət və xidmətlərdə uşaqların rifahına rəvac verən mərkəz" yanaşmalarının tətbiq olunduğu görülür. Bu yanaşmanın ortaya çıxmasına insanların rifahının təkcə adambaşına gəlirlə əlaqəli olmadığı barədə geniş düşüncənin təsiri olmuşdur. Bu anlayış, eyni zamanda, BMT-nin Uşaq Hüquqları Konvensiyasında "uşaqların da xüsusi hüquqları olduğu kimi insan hüquqları da var" prinsipinin xatırlatması olaraq qəbul edilmişdir. Nəticə etibarilə uşaqların rifahını təmin etmək üçün bu hüquqlara hörmət edən xüsusi siyasət tələb olunur.

Uşaq hüquqları Komitəsi

Uşaq hüquqları Komitəsi Uşaq hüquqları haqqında 1989-cu il Konvensiyasının 43-cü maddəsi əsasında yaradılmışdır. Konvensiyanın iştirakçı dövlətləri tərəfindən 4 il müddətinə seçilən 10 ekspertdən ibarətdir. Başlıca səlahiyyəti Konvensiyada iştirak edən dövlətlərin dövri məruzələrinə baxmaqdan ibarətdir. Komitə habelə müxtəlif ölkələrdə uşaqların vəziyyəti barədə məlumat toplayır və təhlil edir, müvafiq tövsiyələr işləyib hazirlayır.

Uşaq hüquqları Konvensiyası

Əsas məqalə: Uşaq hüquqları Konvensiyası

20 noyabr 1989-cu ildə BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmişdir.

**II İştirakçı:** Uşaq hüquqları Konvensiyası – BMT tərəfindən qəbul edilmiş bir saziş olaraq, dünyanın hər bir yerində yaşayan uşaqlara konvensiya ilə müəyyən edilmiş hüquqları təmin edir. Konvensiya uşaqların yaşaması və inkişafı üçün zəruri olan minimum standartları müəyyən edir. Konvensiyanın ratifikasiya etmiş bütün dövlətlər bu öhdəlikləri yerinə yetirməlidirlər. Onlar daimi xüsusi təşkil edilmiş Uşaq Hüquqları Komitəsinə hesabat və həyata keçirdikləri bütün işlər haqda məlumat verirlər. Bu Konvensiya uşaqların hüquqlarını təmin edən birinci universal kodeksdir. O, uşaq hüquqlarına dair bütün məsələləri bir sənəddə cəmləşdirib.

*Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının qanunu*

Bu Qanun Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqlarına dair Konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasında uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir.

I fəsil

Ümumi müddəalar

Maddə 1. Qanunun təsir dairəsi

Uşaqların bu Qanunda nəzərdə tutulmuş hüquqları və vəzifələri 18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən hər bir şəxsə aid edilir.

Maddə 2. Uşaq hüquqları barəsində qanunvericilik

Uşaq hüquqları barəsində qanunvericilik bu Qanundan və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir. Digər normativ hüquqi aktların normaları uşaqların bu Qanunla müəyyən edilmiş hüquq və azadlıqlarını məhdudlaşdıra bilməz.

Maddə 3. Uşaqlar barəsində dövlət siyasəti

Uşaqlar barəsində dövlət siyəsəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının tə min edilməsinə yönəldilir.

Dövlət siyasəti milli və yerli xüsusiyyətlər nəzərə alınmaqla yaradılmış məqsədli uşaq sosial proqramları əsasında həyata keçirilir. Bu proqramların yerinə yetirilməsinə dövlət orqanları ilə yanaşı digər hüquqi və fiziki şəxslər də iştirak edə bilərlər.

Maddə 4. Uşaq hüquqlarını müdafiə edən orqanlar, birliklər və təşkilatlar

Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir

Azərbaycan Respublikasında uşaq hüquqlarının müdafiəsini müvafiq icra hakimiyyəti, məhkəmə, prokurorluq və digər hüquq mühafizə orqanları, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman), bələdiyyələr, habelə ictimai birliklər, həmkarlar ittifaqı təşkilatları tə min etməlidirlər. Bu orqanlar, birliklər və təşkilatlar fəaliyyətlərində uşaq hüquqlarının üstün mühafizəsi prinsipini əsas tutmalıdırlar.

Maddə 5. Uşaq mənafelərinin üstünlüyü

Dövlət orqanları, bütün fiziki və hüquqi şəxslər öz fəaliyyətində uşaqların mənafelərini üstün tutmalı, onların hüquqlarının tə min olunmasına şərait yaratmalıdırlar. Azərbaycan Respublikasının normativ hüquqi aktları və

müvafiq orqanların qərarları uşaq mənafelərinə zidd olmamalı və onların icrası uşaqların həyatına, inkişafına və tərbiyəsinə zərər gətirməməlidir.

Maddə 6. Uşaqların hüquq bərabərliyi

Bütün uşaqlar bərabər hüquqlara malikdirlər. Uşaqların, onların valideynlərinin və ya onları əvəz edən şəxslərin sosial və əmlak vəziyyətindən, sağlamlığından, irqi və milli mənsubiyyətindən, dilindən, təhsilindən, dinindən, siyasi baxışlarından, yaşayış yerindən asılı olmayaraq uşaqlar ayrı-seçkiliyə mə ruz qala bilməzlər. Uşaqlar valideynlərinin və ya onları əvəz edən digər şəxslərin hərəkətlərinə görə məs uliyyət daşımır və valideynləri ilə bağlı səbəblərə görə onların hüquqlarının məhdudlaşdırılmasına yol verilmir. Nikahda və ya nikahdankənar doğulmasından asılı olmayaraq uşaqların valideynləri barəsində eyni hüquqları vardır.

Maddə 7. Uşağın nümayəndələri

Uşağın valideynləri, eləcə də övladlığa götürənlər, qəyyumlar, himayəçilər, uşaq evlərinin müdiriyyəti uşaqların hüquq və mənafelərini müdafiə edən nümayəndələridir.

Maddə 8. Uşağın yaşamaq və inkişaf etmək hüququ

Hər bir uşağın yaşamaq, normal şəraitdə fiziki, əqli və mə nəvi cəhətdən inkişaf etmək hüququ vardır. Dövlət bu şəraiti tə min edən iqtisadi, sosial-hüquqi və digər tədbirlər görməyi, sağlam və təhlükəsiz mühit yaratmağı öz öhdəsinə götürür.

Maddə 9. Uşağın həyatı və sağlamlığının mühafizəsi hüququ

Hər bir uşağın həyat və sağlamlığının mühafizə edilməsi hüquqi vardır. Dövlət uşaqların həyatının mühafizəsi və sağlam inkişafını tə min edir, ekoloji təhlükəsizliyini tə min edən şərait yaradır, onların keyfiyyətli yeməklə, içməli təmiz su ilə təchizi üçün müvafiq tədbirlər görür.

Uşaqların “Uşaqların icbari dispanserizasiyası haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş

qaydada dispanserizasiyadan keçmək, dispanserizasiyanın nəticələrindən asılı olaraq tibbi göstərişlər əsasında ambulator, stasionar və ya sanatoriya-kurort şəraitində tibbi yardım almaq, dispanserizasiyanın nəticələri, o cümlədən aparılmış müayinə-müalicə tədbirləri, habelə sağlamlığının vəziyyəti haqqında tam və obyektiv məlumat almaq hüquqları vardır.

Alkoqollu və energetik içkilərin, tütün məmulatlarının uşaqlara satılması, əmək şəraiti ağır, zərərli olan iş yerlərində, habelə yeraltı tunellərdə, şaxtalarda və digər yeraltı işlərdə, uşaqların əxlaqi kamilliyinə mənfi təsir göstərən gecə klublarında, barlarda, alkoqollu və energetik içkilərin, tütün məmulatlarının, toksik preparatların istehsalı, daşınması, satışı və saxlanılması işlərində, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə bağlı olan və uşaqların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən digər işlərdə uşaq əməyinin tətbiq edilməsi qadağandır.

Maddə 10. Uşağın ad və vətəndaşlıq almaq hüququ

Hər bir uşaq doğulduqdan sonra Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qeydiyyata alınır və "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, vətəndaşlıq əldə edir.

Uşağa ad valideynlərinin qarşılıqlı razılığı ilə, valideynləri olmadıqda isə qəyyumluq orqanlarının razılığı və ya göstərişi əsasında verilir.

Maddə 11. Uşağın tərbiyə almaq hüququ

Hər bir uşağın hərtərəfli inkişaf etmək, milli və ümumbəşəri dəyərlərə uyğun, humanizm və əxlaqi prinsiplər əsasında tərbiyə almaq hüququ vardır.

Uşağın tərbiyəsi ailədə və təhsil müəssisələrində aparılır.
Dövlət uşaqların yaradıcılıq qabiliyyətinin, estetik tərbiyəsinin inkişafı üçün müxtəlif müəssisələr yaradır, habelə belə müəssisələrin yaradılmasında ictimai təşkilatlara köməklik göstərir.
Zorakılıq, qəddarlıq təbliğ edən, habelə uşaqların psixi və mənəvi inkişafına zərərli tə sir göstərən filmlərin, ədəbiyyatların və digər vəsaitlərin uşaqlar arasında yayılması və nümayişi, habelə bunların hazırlanmasına uşaqların cəlb edilməsi qadağandır.
Maddə 11-1. Reklamda uşaqların müdafiəsi
11-1.1. Uşaqlara mənəvi və fiziki baxımdan zərərli təsirin qarşısını almaq məqsədi ilə reklamda aşağıdakılar qadağan olunur:
11-1.1.1. valideynlərin, qəyyumların, himayəçilərin, tərbiyəçilərin və başqa şəxslərin nüfuzuna xələl gətirən, onlara olan etibarı zəiflədən məlumatların verilməsi;
11-1.1.2. başqa şəxsə münasibətdə kobudluğun, nifrət hissinin, təcavüzkarlığın, zərərli vərdişlərin aşılanması;
11-1.1.3. qüvvətləndirici və fərqləndirici sözlər vasitəsilə ailənin maddi vəziyyətindən asılı olmayaraq əmtəənin əldə edilməsinin mümkünlüyü fikrini yaratmaqla, valideynlərin və başqa şəxslərin bu əmtəəni almağa vadar edilməsinə yönəldilmiş məlumatlar;
11-1.1.4. həyat və sağlamlıq üçün təhlükəli olan hərəkətləri nümayiş etdirməklə, onların təkrarlanmasına sövqetmə;
11-1.1.5. uşaqlara aid olmayan əmtəənin reklamının onlar üçün nəzərdə tutulmuş mediada, televiziya və radio proqramlarında, audio və video materiallarda yerləşdirilməsi;
11-1.1.6. uşaqlara ünvanlanan, yaxud onların iştirakı ilə yayımlanan reklamlarda uşaqların maraqlarına zərbə vuran ünsürlərdən istifadə olunması;

11-1.1.7. uşaqların psixoloji gərginlik yarada biləcək vəziyyətlərdə göstərilməsi;

11-1.1.8. alkoqollu və energetik içkilərdən istifadə olunması ilə bağlı uşaqlara müraciət edilməsi, uşaqlar üçün proqramların (verilişlərin) alkoqollu və energetik içkilərin reklamı ilə kəsilməsi.
11-1.2. Dərslikdə, dərs vəsaitində, tədris materialında, məktəb gündəliyində, dəftərdə, albomda, uşaqlar üçün nəzərdə tutulmuş kitabda reklam yerləşdirilə bilməz.
11-1.3. Uşaqlar üçün proqramlar "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə uyğun olaraq reklamla kəsilə bilməz.
11-1.4. Uşaqlara mənəvi və fiziki baxımdan zərərli təsir göstərə bilən reklam məktəbəqədər və ümumi təhsil müəssisələrinin ərazilərindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məsafədən yaxın yerləşdirilə bilməz.
Maddə 12. Uşağın azadlıq və şəxsi toxunulmazlıq hüququ
Uşaq azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir.
Müstəsna hal kimi uşağın tutulmasına, həbs edilməsinə yalnız Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş əsaslar mövcud olduqda yol verilə bilər. Uşaq tutulduqda və ya həbs edildikdə bu barədə onun valideynlərinə və ya digər qanuni nümayəndələrinə dərhal mə lumat verilməlidir.
Uşaqların hüquqları və qanuni mənafeləri pozulduqda, o cümlədən valideynləri (onlardan biri) uşağın təhsili, tərbiyəsi üzrə vəzifələrini yerinə yetirmədikdə və ya valideynlik hüquqlarından sui-istifadə etdikdə uşaq öz hüquqlarını qorumaq üçün müvafiq icra hakimiyyəti orqanlarına, 14

yaşına çatdıqda isə məhkəməyə müraciət etmək hüququna malikdir.
İstənilən fiziki və ya hüquqi şəxs uşaqlarla qəddar rəftar hallarını müşahidə etdikdə belə rəftarın qarşısının alınması üçün müvafiq orqanlara müraciət edə bilər.
Valideynlərin və ya digər şəxslərin uşaqlarla qəddar rəftara yol verməsi, onlara qarşı psixi və fiziki zor tətbiq etməsi, uşaqların hüquqlarını pozması Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada valideynlik hüquqlarından məhrum edilməyə, habelə inzibati və ya cinayət məs uliyyətinə səbəb olur.
Maddə 13. Uşağın zəruri maddi tə minat hüququ
Uşağın Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş minimum dolanacaq xərclərindən az olmayan maddi tə minat almaq hüququ vardır.
Maddə 14. Uşağın vicdan, fikir və söz azadlığı
Hər bir uşağın vicdan, fikir və söz azadlığı vardır.
Valideynlər, digər şəxslər və dövlət orqanları uşağın vicdan, fikir və söz azadlığına hörmətlə yanaşmalıdırlar.
Uşağın səhhətinə zərərli tə sir göstərən dini ayinlərin icrasına cəlb edilməsi qadağandır.
Maddə 15. Uşağın mə lumat azadlığı
Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hər bir uşağın əqli və fiziki inkişafı üçün zəruri olan istənilən mə lumatı axtarmaq, əldə etmək, ötürmək və yaymaq hüququ vardır.
Uşaqların zərərli informasiyadan qorunması “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.
Maddə 16. Uşağın əsas vəzifələri
Cəmiyyətdə davranış qaydalarına əməl etmək, Azərbaycan Respublikasının dövlət rəmzlərinə bələd olmaq, biliklərə

yiyələnmək, özünü faydalı fəaliyyətə hazırlamaq, valideynlərə, digər vətəndaşların hüquq və mənafelərinə, öz xalqının və başqa xalqların ən ənələrinə və mədəni sərvətlərinə hörmətlə yanaşmaq, tarix və mədəniyyət abidələrini, ətraf mühiti qorumaq və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək uşağın borcudur.
Bu vəzifələrin uşaq tərəfindən dərk edilməsinə və icrasına valideynlərin, müvafiq orqanların və təhsil müəssisələrinin uşaqlar arasında izahat və təbliğat aparmaları yolu ilə nail olunur.

II fəsil

Uşaq və ailə

Maddə 17. Uşağın ailədə yaşamaq hüququ

Uşağın ailədə valideynləri ilə birgə yaşamaq, onlardan qayğı görmək hüququ vardır. Qanunvericiliklə nəzərdə tutulmuş hallardan başqa valideynlərin istəyinə zidd olaraq uşağı onlardan ayırmaq qadağandır.

Maddə 18. Valideynlərindən ayrı yaşayan uşağın hüququ

Valideynlərinin hər ikisindən və ya birindən ayrı yaşayan uşağın onları tanımaq, habelə bu ona mənfi tə sir göstərmirsə, valideynləri ilə ünsiyyətdə olmaq hüququ vardır.

Maddə 19. Valideynlərin hüquq və vəzifələri

Valideynlərin uşağın tərbiyəsində bərabər hüquq və vəzifələri vardır. Onlar uşağı sağlam böyütməli, ümumbəşəri və milli dəyərlər əsasında tərbiyə etməli, müstəqil həyata hazırlamalıdırlar. Uşağın qabiliyyətinin inkişaf etdirilməsi, onun maddi və mə nəvi tələbatlarının tə min edilməsi, hüquq və mənafelərinin mühafizəsi valideynlərin əsas vəzifələridir.
Valideynlərin uşaqlar barəsində hüquq və vəzifələrinin həyata keçirilməsinə dövlət orqanlarının qarışmasına yalnız

qanunla nəzərdə tutulmuş hallarda və uşağın maraqları naminə yol verilə bilər.
Uşaqların vurduğu maddi ziyana görə onun valideynləri, övladlığa götürənlər, qəyyumlar və ya himayəçilər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məs uliyyət daşıyırlar.
Maddə 20. Uşağın mənzil hüququ
Hər bir uşağın mənzil hüququ vardır. Uşaqların yaşadıqları mənzil sahəsinə ailənin digər üzvləri ilə bərabər hüquqları vardır.
Valideyn himayəsindən məhrum olmuş uşaqlar tərbiyə olunmaq üçün dövlət uşaq müəssisəsinə, qohumlarına və ya qəyyumlara (himayəçilərə) verildikdə əvvəl yaşamış olduqları mənzilə hüquqlarını saxlayırlar. Bu mənzilə köçmək mümkün olmadıqda həmin uşaqlar, habelə əvvəllər mənzil sahəsi olmayan valideyn himayəsindən məhrum uşaqlar mənzillə növbədənkənar tə min edilməlidirlər. Həmin mənzillərlə əlaqədar müqavilələrin bağlanması Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq həyata keçirilir.
Sosial müdafiəyə ehtiyacı olan aztəminatlı gənclərə aid olan uşaqlara Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə müəyyən edilmiş qaydada sosial kirayə müqaviləsi əsasında yaşayış sahələri verilir.
Maddə 21. Uşağın vərəsəlik və valideynlərinin əmlakı hesabına saxlanma hüququ
Hər bir uşağın valideynlərinin, övladlığa götürülənlərin əmlakına dair vərəsəlik, məhkəmənin qərarı ilə valideynlərdən hər ikisi və ya biri xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildikdə isə onların əmlakı hesabına saxlanmaq hüququ vardır.

III fəsil

Uşaq və cəmiyyət

Maddə 22. Uşağın təhsil almaq hüququ

Hər bir uşağın Azərbaycan Respublikasının təhsil qanunvericiliyinə uyğun olaraq təhsil almaq hüququ vardır.

Dövlətin təhsil sistemi uşağın şəxsiyyətinin inkişafına, zəruri bilik və bacarıqları tam həcmdə əldə etməsinə şərait yaratmalıdır.

Uşaqların icbari ümumi orta təhsildən yayındırılması qadağandır.

Maddə 23. Fitri iste dada malik uşaqlara dövlət qayğısı

Dövlət fitri iste dada malik uşaqların erkən yaşdan üzə çıxarılması və onların qabiliyyətinin qiymətləndirilməsi üçün tədbirlər görür, onlar üçün adlı və xüsusi təqaüdlər müəyyən edir, xüsusi təhsil müəssisələrinin sistemini yaradır və maliyyələşdirir, bu sahədə beynəlxalq əlaqələri inkişaf etdirir.

Maddə 24. Uşağın əmək hüquqları

Uşaqların yaşına, səhhətinə, ümumtəhsil və peşə hazırlığı səviyyəsinə uyğun olaraq əmək hüququ vardır.

Uşaqların əmək hüququnun yaranmasının və həyata keçirilməsinin şərtləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 25. Uşağın istirahət hüququ

Hər bir uşağın istirahət və asudə vaxtdan istifadə etmək hüququ vardır. Uşaq öz maraqlarına və qabiliyyətinə uyğun olaraq məktəbdənkənar istirahət və məşğuliyyət növü seçməkdə müstəqildir. Valideynlər (onları əvəz edən digər şəxslər) və müvafiq dövlət orqanları uşaqların istirahət və asudə vaxtlarında mənfi tə sirlərə mə ruz qalmasının qarşısını alan tədbirlər görməlidirlər.

Dövlət uşaqların istirahət və asudə vaxtını səmərəli təşkil etmək, mədəni həyata və yaradıcılıq fəaliyyətinə

qovuşmasını tə min etmək məqsədilə məktəbdənkənar müəssisələrin, uşaq və gənclər idman, mədəniyyət və sağlamlıq ocaqlarının və digər istirahət yerlərinin geniş şəbəkəsini yaradır və inkişaf etdirir, bu obyektlərdən pulsuz və güzəştli istifadə qaydalarını müəyyən edir.

Xüsusi dövlət əhəmiyyətli işlərin görülməsi ilə bağlı hallar istisna olmaqla uşaqların məktəbdənkənar istirahət və asudə vaxtlarının təşkili ilə bağlı yerlərin ləğvi və başqa məqsədlər üçün istifadə olunması qadağandır.

Dövlət və bələdiyyə bədən tərbiyəsi-idman təşkilatlarında aztəminatlı ailələrdən olan uşaqlara, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara, məktəbəqədər yaşlı uşaqlara, sağlamlıq imkanları məhdud uşaqlara bədən tərbiyəsi-idman xidmətləri pulsuz göstərilir.

Maddə 26. Uşaqların ictimai təşkilatlarda birləşmək hüququ

Uşaqların təhsil və ya yaşayış yerlərində Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada ictimai birliklər və ictimai özfəaliyyət orqanları yaratmaq və onlarda birləşmək hüququ vardır.

Uşaqların və uşaq ictimai birliklərinin və ictimai özfəaliyyət orqanlarının siyasi fəaliyyətə cəlb edilməsinə yol verilmir.

Maddə 27. Uşağın şərəf və ləyaqətinin müdafiəsi hüququ

Hər bir uşağın şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır. Təhsil müəssisələrində, məktəbəqədər və məktəbdənkənar müəssisələrdə intizam qaydaları ədalət prinsipinə əsaslanmalı, tərbiyəedici və qarşılıqlı hörmət ruhunda olmalıdır. Uşaqların təhqir edilməsi, şəxsiyyətlərinin alçaldılması yolverilməzdir.

Uşaqların şərəf və ləyaqətinə qəsd edilməsi Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

Maddə 28. Uşağın istismardan və zərərli təsirlərdən mühafizəsi

Dövlət sosial, hüquqi, iqtisadi, tibbi və tərbiyəvi vasitələrlə uşaqları istismarın bütün növlərindən, ağır, zərərli və təhlükəli əməkdən və təsirlərdən mühafizə edir.

Uşaqlara qarşı fiziki və psixi zorakılıq, uşaqların cinsi istismarı, onların alkoqolizmə, dilənçiliyə, qumara, fahişəliyə, narkomaniyaya, toksikomaniyaya cəlb edilməsi, cinayətkar məqsədlər üçün onlardan istifadə edilməsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş müvafiq məsuliyyətə səbəb olur.

Maddə 28-1. Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi

28-1.1. Təhsil, səhiyyə, sosial müdafiə, məhkəmə, hüquq mühafizə, idman, mədəniyyət və istirahət sahələrində uşaqlarla müntəzəm təmasda olan şəxslər arasında uşaqların müdafiəsi və onların hüquqları barədə məlumatlılığın artırılması, həmin şəxslərin cinsi istismara və cinsi zorakılığa məruz qalmış uşaqların müəyyən edilməsi vasitələri barədə təlimatlandırılması üçün dövlət və yerli özünüidarəetmə orqanları, hüquqi və vəzifəli şəxslər tədbirlər görürlər. Uşaqlarla müntəzəm təmasda olan şəxslər arasında uşağın cinsi istismar və ya cinsi zorakılıq qurbanı olması barədə əsaslar olduqda konfidensiallığa əməl etməklə, uşaq hüquqlarını müdafiə edən orqanlara məlumat verilməsi imkanları barədə təbliğat və təşviqat işləri aparılır.

28-1.2. Uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayətə görə məhkum olunmuş şəxslər uşaqlarla müntəzəm təmasla əlaqədar işə qəbul (təyin) və ya cəlb edilə bilməzlər.

28-1.3. Cinsi istismar və ya cinsi zorakılıq qurbanı olmuş uşaqlar insan alverinin qurbanı olmuş uşaqlar üçün nəzərdə tutulmuş hüquqlardan və təminatlardan istifadə edirlər.

Maddə 29. Uşaqlara sosial yardımlar

Dövlət uşaqlara birdəfəlik ödəmələr, aylıq müavinətlər, kompensasiyalar formasında sosial yardımlar verir.

Ehtiyacı olan uşaqlara müvafiq icra hakimiyyəti orqanları əlavə yardım və imtiyazlar tətbiq edə bilər.

Sosial yardımlar uşaqların mənafelərinə uyğun sərf olunmalıdır.

IV fəsil

Əlverişsiz şəraitə düşmüş uşaqların müdafiəsi

Maddə 30. Əlverişsiz şəraitdə yaşayan uşaqların müdafiəsi üzrə dövlət proqramları

Dövlət hərbi əməliyyatlar, epidemiya, təbii və ekoloji fəlakətlər zonasında yaşayan və ya onların tə sirinə mə ruz qalan, habelə valideynlərini itirmiş uşaqların, natamam (valideynlərdən biri olmayan), aztə minatlı ailələrin uşaqlarının, şəhid uşaqlarının müdafiəsini xüsusi proqramlar əsasında tə min edir.

Maddə 31. Valideyn himayəsindən məhrum olmuş uşaqların müdafiəsi tədbirləri

Valideyn himayəsindən məhrum olmuş uşaqların müdafiəsi onların övladlığa, qəyyumluğa, himayəçiliyə, digər ailəyə verilməsi, bunlar mümkün olmadıqda isə uşaqlar üçün sosial xidmət müəssisələrində yerləşdirilməsi üsulu ilə tə min edilir.

Müdafiə üsulu müəyyən edilərkən uşağın etnik mənşəyi, dini və mədəni mənsubiyyəti, dili, tərbiyəsinin varisliyi nəzərə alınmalıdır.

Uşaqlar üçün sosial xidmət müəssisələrində saxlanan valideyn himayəsindən məhrum olmuş uşaqlar tam dövlət tə minatındadırlar. Onlar Azərbaycan Respublikasının

qanunvericiliyində nəzərdə tutulmuş güzəşt və imtiyazlardan istifadə edirlər.

Maddə 32. Övladlığa götürmə

Uşağın övladlığa götürülməsinə onun mənafeyi naminə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yol verilir. Övladlığa götürən şəxs uşağın normal inkişafı və tərbiyəsi üçün müvafiq imkanlara malik olmalıdır. Şəxsi mənfəət əldə etmək məqsədilə uşağın övladlığa götürülməsi qadağandır. Övladlığa götürənin sirri dövlət tərəfindən qorunur.

Azərbaycan Respublikasının vətəndaşı olan uşağın əcnəbilər tərəfindən övladlığa götürülməsinin, habelə Azərbaycan Respublikası vətəndaşının əcnəbi uşağı övladlığa götürməsinin qaydaları dövlətlərarası müqavilələr və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 33. İnternat müəssisələrində uşaqların saxlanmasının və tərbiyəsinin şərtləri

Uşaq evlərində, internat tipli uşaq müəssisələrində uşaqların tə lim-tərbiyəsinin təşkili və keyfiyyətinə görə həmin müəssisələrin rəhbərləri məs uliyyət daşıyırlar.

Antipedaqoji və əxlaqsız hərəkətlərə yol vermiş şəxslərin uşaq müəssisələrində işləməsinə yol verilmir.

Uşaq evlərində və uşaq internat müəssisələrində uşaqların hərtərəfli fiziki və mə nəvi inkişafı, şəxsiyyətinin formalaşması məqsədilə ailə şəraitinə yaxınlaşan zəruri maddi və mə nəvi-psixoloji şərait yaradılır.

Maddə 34. İnternat müəssisələri mə zunlarının müdafiəsi

İnternat müəssisələrinin valideyn himayəsindən məhrum olmuş mə zunlarının hüquq və mənafelərinin müdafiəsi bu müəssisələrin rəhbərləri və himayə orqanları tərəfindən həyata keçirilir.

Təhsilini davam etdirməyə gedən və ya işə düzələn internat müəssisələrinin mə zunlarının Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən olunmuş miqdarda tə minat almaq hüququ vardır.
Yaşayış sahəsi olmayan mə zunların yetkinlik yaşına çatana qədər bu müəssisələrdə qalmasına icazə verilir.
Maddə 35. Sağlamlıq imkanları məhdud uşaqların müdafiəsi
Sağlamlıq imkanları məhdud uşaqların növbədənkənar, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada tibbi və defektoloji, habelə "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq hüququ vardır.
Dövlət bu uşaqların sosial bacarıqlarının inkişafına, peşə-əmək və psixoloji-pedaqoji reabilitasiyasına, habelə psixoloji korreksiyasına kömək göstərir, uşaqlar arasında əlilliyin qarşısını almaq üçün tədbirlər görür.
Maddə 36. 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə qulluq edən şəxslərə verilən güzəştlər
18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə qulluq dövrü pensiya hüququ verən iş stajına daxil edilir və həmin şəxsə qulluq edən şəxsə "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məbləğdə müavinət ödənilir.
Yetkinlik yaşına çatmayan şəxs postvaksinal fəsadla əlaqədar xəstəliyə tutulduqda ona "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 3.1-ci maddəsinə uyğun olaraq əlillik müəyyən edilənədək onun valideynlərindən biri və ya qanuni nümayəndəsi fasiləsiz iş stajından asılı olmayaraq, orta əmək haqqının 100 faizi miqdarında müavinət almaq hüququna malikdir.
Maddə 37. Hərbi münaqişələr dövründə uşaqların müdafiəsi

Azərbaycan dövləti onun hərbi münaqişələrə cəlb edildiyi ərazidə olan uşaqların müdafiəsini beynəlxalq hüquqi normalara uyğun olaraq tə min etməyi öz üzərinə götürür.
Hərbi idarələr döyüş əməliyyatları zonasında olan uşaqların təhlükəsiz yerlərə köçürülməsi, onların həyatının və sağlamlığının mühafizəsi üçün bütün mümkün imkanlardan istifadə etməlidirlər.
15 yaşına çatmamış uşaqların hərbi əməliyyatlarda birbaşa iştirakı qadağan edilir. Uşaqların hərbi-təhsil məktəblərinə cəlb edilməsi qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.
Maddə 38. Təbii fəlakətlər, bədbəxt hadisələr və qəzalar nəticəsində zərər çəkmiş uşaqların müdafiəsi
Dövlət təbii fəlakətlər, bədbəxt hadisə və qəzalar nəticəsində əlverişsiz şəraitə düşmüş və ya zərər çəkmiş uşaqlara tə cili əvəzsiz kömək göstərir, onların təhlükəsiz yerlərə köçürülməsi üçün tə xirəsalınmaz tədbirlər görür.
Belə uşaqlar valideynlərini itirdikdə onlar valideyn himayəsindən məhrum olmuş digər uşaqlar üçün nəzərdə tutulmuş qaydada dövlət tərəfindən müdafiə olunurlar.
Maddə 39. Qaçqın və ya məcburi köçkün uşaqların müdafiəsi
Qaçqın və ya məcburi köçkün olan uşaqların müvafiq status almaq hüququ vardır. Dövlət onları lazımi müdafiə və humanitar yardımla tə min etmək üçün tə cili müvafiq tədbirlər görür, belə uşaqların valideynlərinin axtarılmasını təşkil edir, bu məqsədlə beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, qeyri-dövlət təşkilatlarının fəaliyyətinə zəruri köməklik göstərir.
Maddə 39-1. Uşaqların baxımsızlığının və hüquq pozuntularının profilaktikası

Dövlət qanunvericiliklə müəyyən edilmiş qaydada uşaqların baxımsızlığının və hüquq pozuntularının profilaktikasını həyata keçirir.

Maddə 40. İnzibati xəta törətmiş uşaqların işlərinə baxılmasının xüsusiyyətləri

İnzibati xəta törətmiş uşaqların işlərinə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada və orqanlar tərəfindən baxılır. Həmin uşaqlar barəsində qərar çıxarılarkən uşağa humanist mövqedən yanaşılmalıdır.

Tənbeh tədbirləri seçilərkən işin halları, uşağın yaşı, həyat şəraiti, səhhəti, psixi inkişafı və təhsili nəzərə alınmalıdır.

Maddə 41. Xüsusi tərbiyə müəssisələrində olan uşaqların hüquqları

Uşaqların xüsusi tə lim-tərbiyə, yaxud ixtisaslaşdırılmış tibb müəssisələrinə göndərilməsinə yalnız Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yol verilir.

Xüsusi tə lim-tərbiyə və ya ixtisaslaşdırılmış tibb müəssisələrində olan uşaqların onlarla humanist davranması, səhhətinin mühafizəsi, zəruri təhsil və peşə hazırlığı almaq, mə zuniyyət, yazışma, valideynləri və qohumları ilə görüşmək hüququ vardır.

Maddə 42. Cinayət icraatı qaydalarının uşaqlara tətbiqinin xüsusiyyətləri

Uşaqlar barəsində məhkəməyədək icraatın, həmçinin birinci, apellyasiya və kassasiya instansiyaları icraatının xüsusiyyətləri Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilir.

Uşaqların törətdikləri cinayətlər üzrə məhkəməyədək icraat yalnız ibtidai istintaq şəklində aparılır. Uşaqlar barəsində həbsə alma qətimkan tədbirinin tətbiq edilməsinə yalnız

onlara az ağır zorakı cinayətin, habelə ağır və ya xüsusilə ağır cinayətin törədilməsi istinad edildikdə yol verilir. Uşaqların azadlıqdan məhrum edilməsi ilə bağlı olan cəza tədbirləri məhkəmələr Tərəfindən yalnız həmin məsələnin mükəmməl baxılmasından sonra tətbiq edilməli və imkan daxilində aşağı həddə təyin edilməlidir.

Həbs edilmiş uşağı onun mənafeyinin tələb etdiyi hallardan başqa yaşlılarla bir yerdə saxlamaq qadağan edilir. Azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş uşaqlar Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi ilə müəyyən edilmiş qaydada tərbiyə müəssisələrində saxlanılırlar.

Uşaqların saxlandığı tərbiyə müəssisələrinin müdiriyyəti onların vicdanlı və layiqli vətəndaş kimi yetişməsi, müvafiq təhsil və peşə vərdişləri əldə etməsi üçün müvafiq şərait yaratmalıdırlar.

## V fəsil

## Yekun müddəalar

Maddə 43. Uşaq hüquqlarına əməl edilməsi üzərində nəzarətin və uşaq baxımsızlığına qarşı mübarizənin təşkili

Uşaq hüquqlarına əməl edilməsi üzərində nəzarətin və uşaq baxımsızlığına qarşı mübarizənin təşkili müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

Maddə 44. Bu Qanunun pozulmasına görə məs uliyyət

Bu Qanunun tələblərinin pozulmasında təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məs uliyyət daşıyırlar.

Maddə 45. Beynəlxalq müqavilələr

Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə bu Qanun arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

20 noyabr Ümumdünya Uşaq Hüquqları Günü ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də, *"Cəmiyyətin həssas və kövrək zümrəsi- uşaqlar"* adlı **şeir müsabiqəsidir.** Kitabxanaçı ilk olaraq mövzu ilə bağlı bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır. Eyni zamanda bu mövzudan yazılmış əsərlər və kitablardan söhbət açır.

*Kitabxanaçı:* Zəmanəsinin böyük ədəbi dühası Viktor Hüqo yazırdı ki, Yer üzündə uşaq qığıltısı qədər təntənəli himn yoxdur. İstənilən cəmiyyətdə körpə və uşaqlar ailə üçün sevinc və xoşbəxtlik simvolu sayılmışlar. Cəmiyyətin sağlam özəyi, gələcəyi,köməyə ehtiyac duyan kövrək zümrəsi olan uşaqlar insan həyatının mənası, ailənin sevinci, ən böyük zinəti, dəyərli sərvətidir. Bu gün isti ocaqda yetişən, boya-başa çatan körpələr sabah cəmiyyətin simasını müəyyən edəcək, dövlətin gələcəyinə görə məsuliyyət daşıyacaqlar.

Uşaqlıq və yeniyetməlik illəri insan həyatının ən rəngarəng, yaddaqalan, xoşbəxt çağlarıdır. Məhz bu illərdə, bu dövrdə insanın gələcək taleyinin, onun fiziki və mənəvi sağlamlığının, vətəndaş mövqeyinin, insani cəhətlərinin əsası qoyulur. Təsadüfi deyildir ki, müasir dövrdə hər bir dövlət cəmiyyətin həssas zümrəsi kimi tarixən yüksək nəvazişlə əhatə olunan uşaq və yeniyetmələrin sosial ehtiyaclarının hərtərəfli təmini, onların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında tərbiyə alaraq layiqli şəxsiyyət kimi yetişməsi üçün bütün zəruri tədbirləri həyata keçirir.

## Uşaq hüquqlarına beynəlxalq hüquqi təminatlar

İnsan hüquq və azadlıqlarının təminatı sahəsində inqilabi yeniliklərlə yadda qalmış XX əsrdə uşaqlara qayğının artırılmasına, onların üzləşdikləri problemlərin həllinə xidmət edən bir sıra mühüm konvensiya və sazişlər imzalanmışdır. Eyni zamanda, BMT və digər təşkilatların yuristikası ilə qəbul edilən bir sıra beynəlxalq saziş və faktlara uşaq hüquqları ilə bağlı konkret müddəalar əksini tapmışdır. Ümumi olaraq bu sırada 1924-cü il tarixli "Uşaq hüquqları haqqında Cenevrə Bəyannaməsi"ni, 1948-ci il tarixli "Ümumdünya insan hüquqları Bəyannaməsi"ni, 1959-cu il tarixli "Uşaq hüquqları Bəyannaməsi"ni, 1989-cu il tarixli "Uşaq hüquqlarına dair Beynəlxalq Konvensiya" nı, 1999-cu il tarixli "Uşaq əməyinin ən pis formasına dair 182-ci Konvensiya"nı, 2000-ci il tarixli "Silahlı münaqişələrlə bağlı uşaqların hüquqları haqqında Konvensiyanın Protokolu"nu və s. sənədləri xüsusi qeyd etmək olar.

Xüsusi vurğulamaq lazımdır ki, BMT Baş Assambleyasının qərarı ilə 1950-ci ildən başlayaraq hər il iyun ayının 1-i beynəlxalq səviyyədə Uşaqların Müdafiəsi Günü kimi qeyd olunur. Məhz həmin gün təşkil olunmuş "Qadınların Beynəlxalq Konfransı"nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənmiş və orada 1 iyun tarixinin Uşaqların Beynəlxalq Müdafiəsi Günü elan edilməsinə qərar verilmişdir.

Dünyanın əksər ölkələrində olduğu kimi, bu gün Azərbaycanda da geniş qeyd edilir. Bu əlamətdar gündə, ilk növbədə, uşaqların dinc yaşamaq, təhsil, sağlamlıq, istirahət, əyləncə, hüququ, habelə fiziki və psixoloji zorakılıqdan, istismardan qorunmaq kimi hüquqları böyüklərin diqqətinə çatdırılır.

Bundan əlavə, hər il 20 noyabr tarixi BMT Uşaq Hüquqları Konvensiyasının Qəbulu Günü kimi əksər dünya ölkələrində qeyd olunur. Konvensiya dünya birliyinin uşaqlarla bağlı ən ülvi arzu və istəklərinin dəqiq, hərtərəfli ifadəçisi kimi insan hüquqları sahəsindəki beynəlxalq sənədlər sırasında xüsusi yer tutur. 1978-ci ildə Polşa hökuməti tərəfindən BMT-nin İnsan Hüquqları Komissiyasına uşaq hüquqları haqda konvensiya təqdim olunmuşdur. 1979-cu ildə təşkilatın bununla bağlı xüsusi komissiyası yaradılmış, sonrakı 10 il ərzində danışıqlar, diskussiyalar davam etmişdir. Nəhayət, 20 noyabr 1989-cu ildə Uşaq Hüquqları Konvensiyası BMT-nin Baş Məclisinə təqdim edilərək qəbul olunmuş, 1990-cı ildə isə 20 dövlət tərəfindən ratifikasiya edilərək qüvvəyə minmişdir.

Sonrakı mərhələdə BMT-yə üzv digər dövlətlər konvensiyaya qoşulduqlarını bəyan etmiş, konvensiyanın prinsip və standartları bütün ölkələr tərəfindən tanınmış və universal olaraq qəbul olunmuşdur.

Uşaq hüquqlarının müdafiəsi, onların normal sosial-mənəvi mühitin hökm sürdüyü cəmiyyətə layiqli insan kimi yetişmələri, zəruri ehtiyaclarının dolğun şəkildə ödənilməsi son 23 ildə Azərbaycan Respublikasında həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir.

Kitabxanaçının çıxışından sonra iştirakçılar öz şeirlərini qiraətli şəkildə demək üçün səhnəyə keçid alır.

*I iştirakçı Zeynal Cabbarzadənin "Yer üzündə uşaqlar var" adlı şeirin söyləyir.*

Yer üzündə uşaqlar var
Rəngi qara, rəngi sarı.
Gəlin dostlar, salamlayaq

Bu gün bütün uşaqları.

Uşaqlar var bahar belə
Onlar üçün acı qışdır.
Uşaqlar var dərd əlindən
Gənc olmamış qocalmışdır.

Uşaqlar var uzaqlarda
Dərdi, qəmi çox böyükdür.
Ac, yalavac, gülmür üzü,
Bir dəridir, bir sümükdür.

Gəlin dostlar, biz onları
Sevə-sevə salaq yada.
Qoy titrəsin səsimizdən
Yad ellərin cəlladları.
Qardaş olsun, sirdaş olsun,
Bu dünyanın övladları!

*II iştirakçı Abdulla Şaiqin "Dünyaya uşaq gəlir" adlı şeirin söyləyir.*

Ətirli, gül-çiçəkdi,
Yazdı, bahardı uşaq.
Dodaqda bal kimidir,
Budaqda bardı uşaq.
Günəşin zərrələri,
Yazın yağışıdır o,
Gözümüzün işığı,
Ərzin naxışıdır o.
Uşaq tək əzizlənən
Silahlar uşaq deyil.

Dünya ilə oynama,
Dünya oyuncaq deyil.
Əsək uşağın üstdə,
Kəsək yolunu şərin,
Uşaq səsindən gözəl
Nəyi var ki, bəşərin!?
Kini, küdurəti yox,
Vicdanı dümağ gəlir,
Dünya ayağa qalxsın,
Dünyaya uşaq gəlir!
Uşaq gəlmir bu qoca
Dünyaya daş atmağa,
Uşaq gəlir bu qoca
Dünyanı yaşatmağa.

*III iştirakçı Ələmdar Quluzadənin “Mavi aləm” adlı şeirin söyləyir.*

Buludlara şeir yazdım,
Qanadlanıb uçum gərək.
Uşaqların göz yaşını
Əllərimlə silim gərək.

Gəlin, uşaqlarla birgə,
Gedək günəşli günlərə.
Don vurduğu taleləri
Sildik, qovuşsun keçmişə.

Maviliklər, biz gəlirik,
Qapını aç sevinclərə.
Uşaqlar şeir yazacaq,
Göy səmadan sətirlərə.

*IV iştirakçı Vaqif Məmmədovun “Körpələri qoru, tanrım” adlı şeirin söyləyir.*

Hər biri bir zümrüd, inci,
Körpələri qoru, tanrım.
Ata-ananın sevinci,
Körpələri qoru, tanrım.

Qönçə olan, ləçək olan,
Təzə açan çiçək olan,
Bir-birindən göyçək olan,
Körpələri qoru, tanrım.

İnsanlığın barı onlar,
Göz yaşıtək duru, onlar,
Ömrümüzün nuru onlar,
Körpələri qoru, tanrım.

*Tədbirin sonunda münsiflər heyəti səlis qiraəti ilə seçilən iştirakçıları mükafatlandırır.*

20 noyabr Ümumdünya Uşaq Hüquqları Günü ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də, *“Mənim hüquqlarım məni qoruyur”* adlı **səhnəcikdir.** Səhnəcik kiçik yaşlı məktəblilər arasında keçirilir. Tədbirin keçirilməsində əsas məqsəd azyaşlı uşaqqları öz hüquqları ilə tanış etmək və 20 noyabr Ümumdünya Uşaq Hüquqları Gününün zəruriyyətindən danışmaqdır. Bunun üçün kitabxananın nağıl otağına toplaşan məktəbliləri kitabxanaçı salamladıqdan sonra ilk olaraq F.Köçərli adına Respublika Uşaq Kitabxaqnası haqqında ətraflı məlumat verir . Uşaqlara öz

hüquqlarından, sonra isə dövlətin onlara olan qayğısından danışır. Kitabxanaçı uşaq hüquqlarından və eləcə də bədii ədəbiyyatda uşaq hüququnun pozulmasından bəhs edən uşaq hekayə, nağıl və ümumiyyətlə bu yöndə olan ədəbiyyatla qonaqları tanış edir. Onlara ayrı-ayrı dövrlərə bu yöndə yazılmış əsərlərdən danışır. Məktəblilər S.S. Axundovun "Qaraca qız", Tağı Şahbazinin "Qayçı", Sevinc Nuruqızının Melisa" əsəri, Dünya ədəbiyyatından Mark Tvenin "Tom Seyyerin macəraları", Çarlz Dikkensin "Oliver Tvistin macəraları", Viktor Hüqonun irihəcmli "Səfillər" romanında "Kozetta" və s. əsrləri haqqında ətraflı məlumat verilir və bu kitablardan təşkil olunan sərgi məktəblilərə təqdim edilir.

*Kitabxanaçı:* İnsan hüquqlarına hörmət cəmiyyətin öz uşaqlarına münasibətindən başlayır. Uşaqlar fiziki və psixoloji cəhətdən müdafiəsiz və zəif olduqlarından onların xüsusi qayğı və münasibətə ehtiyacı var. Uşaqlar ailənin bir hissəsi olduğu kimi, dövlətin də bir hissəsidir. Tarix boyu bəşəriyyət uşaqların hüquqlarının qorunmasında böyük səylər göstərmişdir. Uşaq hüquqlarının qorunmasında birinci dərəcəli məsuliyyət ailənin üzərinə düşür. Bu Azərbaycan Respublikası Ailə Məcəlləsinin 51-ci maddəsində öz əksini tapmışdır. Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsində göstərilir ki, uşaqların qayğısına qalmaq, onları müdafiə etmək ailənin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir.

Tarixə nəzər salsaq görərik ki, uşaqların hüquqlarını təsdiq edən ilk məcburi qüvvəyə malik beynəlxalq sənəd 1924-cü ildə Millətlər Cəmiyyəti tərəfindən 5 əsas prinsipdən ibarət qəbul olunmuş bəyannamədir. Bu sənəd "Cenevrə Bəyannaməsi" adlanır. Həmin bəyənnamədə deyilirdi ki, "bəşəriyyət məcburdur ki, uşaqları ən yaxşı nemətlərlə təmin

etsin”. Bəyənnamənin qəbul edilməsində ilk təşəbbüs Eglantyne Djebb tərəfindən edilmişdir. Birinci dünya müharibəsinin dəhşətlərinin şahidi olan, Eglantyne Djebb müharibənin dəhşətlərindən sarsılaraq uşaqların xüsusi müdafiəyə ehtiyac duyduqlarını anlayır və 1919-cu ildə bacısı Doroti Bakstonun köməyi ilə uşaqlara yardım etmək, onların müdafiəsini təmin etmək məqsədilə Londonda “Uşaqlara Yardım Fondu”-nu təsis edir.Bundan sonra 1959-cu ildə BMT Baş Məclisi tərəfindən “Uşaq Hüquqları Bəyannaməsi” qəbul edildi. Lakin bu bəyannamənin hüquqi qüvvəsi və nəzarət mexanizmi yox idi, dövlətlərin üzərinə məsuliyyət və öhdəlik qoymurdu. Uşaqların hüquqlarını qorumağa dair ən mükəmməl beynəlxalq sənəd 1989-cu il noyabrın 20-də BMT tərəfindən qəbul edilmiş “Uşaq Hüquqları Konvensiyası” oldu. Bu Konvensiyaya 189 ölkə qoşulmuşdur. Azərbaycan Respublikası həmin Konvensiyanı 1992-ci ildə ratifikasiya etmişdir. Konvensiyanın məzmunu, onun əsas ideyası uşaq şəxsiyyətidir. Bununla yanaşı Konvensiya iştirakçı ölkələri uşaqların öz ölkəsinin sosial-siyasi həyatında daha fəal və yaradıcı iştirakına imkan verən şəraitə çağırır. Konvensiyanın mühüm prinsipi irqi ayrı-seçkiliyə yol verməməkdir. Uşaqlar irqindən, dərisinin rəngindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən asılı olmayaraq öz hüquqlarından istifadə etməlidirlər.

Azərbaycan dövləti də bu Konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsinə çalışır. Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqlarına dair Konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasında uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət

orqanlarının, digər hüquqi vəfiziki şəxslərin vəzifələrini özündə əks etdirən "Uşaq hüquqları haqqında" 19 may 1998-ci il tarixli Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Qeyd olunan qanuna əsasən uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir. Eyni zamanda yuxarıda qeyd olunan Qanunda uşaqların bir sıra geniş hüquqları əks olunmuşdur. Beləki bütün uşaqlar bərabər hüquqlara malikdir. Nikahdan və ya nikahdankənar doğulmasından asılı olmayaraq uşaqların valideynləri barəsində eyni hüquqları vardır.Valideynlərinin hər ikisindən və ya birindən ayrı yaşayan uşağın onları tanımaq, habelə bu ona mənfi təsir göstərmirsə, valideynləri ilə ünsiyyətdə olmaq hüququ vardır. Hər bir uşağın həyat və sağlamlığının mühafizə edilməsi hüquqi vardır.

Alkoqol və tütün məmulatlarının uşaqlara satılması, əmək şəraiti ağır, zərərli olan iş yerlərində, o cümlədən yeraltı tunellərdə, şaxtalarda və digər yeraltı işlərdə, habelə onların əxlaqi kamilliyinə mənfi təsir göstərən yerlərdə eləcə də spirtli içkilərin, tütün məmulatlarının istehsalı, daşınması, satışı və saxlanılması işlərində, həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə bağlı və uşaqların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədəbilən digər işlərdə uşaq əməyinin tətbiq edilməsi qadağandır.

Uşaqlarla bağlı iş sahəsində dövlət siyasətini və tənzimlənməsi Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirilir. Dövlət siyasəti milli və yerli xüsusiyyətlər nəzərə alınmaqla yaradılmış məqsədli uşaq sosial proqramları

əsasında həyata keçirilir. Komitə tərəfindən sosial proqramların layihələrinə rəy və təkliflərin verilməsi, həmçinin Dövlət Proqramlarının icra edilməsi, uşaq hüquqlarının təmin olunma səviyyəsinin öyrənilməsi məqsədilə mütəmadi olaraq tədqiqatların aparılması, uşaq problemlərinin ayrı-ayrı sahələri üzrə ictimai maarifləndirmə kampaniyalarının təşkil edilməsi, sosial çarxlar, buklet və digər təbliğat vasitələrinin hazırlanmasını həyata keçirir. 1950-ci ildə BMT-nin Baş Assambleyası tərəfindən hər il iyun ayının 1-i Uşaqların Beynəlxalq Müdafiəsi günü kimi tarixə düşüb. Hər il Respublikamızda iyun ayının 1-i bu bayram böyük coşqu və həvəslə qeyd olunur. Bu bayramın keçirilməsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaxından iştirak edir.

Cəmiyyətin həssas və kövrək zümrəsi kimi həmişə yüksək qayğı və nəvazişlə əhatə olunan uşaqların sosial ehtiyaclarının hərtərəfli təmini, onların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında kamil tərbiyə alaraq layiqli şəxsiyyət kimi yetişdirilməsi zərurəti müasir dövrdə hər bir dövlətin üzərinə uşaq hüquqlarının müdafiəsi ilə bağlı yeni vəzifələr qoyur. İnsan hüquqlarını demokratik inkişafın ayrılmaz hissəsi, bəşəriyyətin ədalətli cəmiyyətə qarışmaq idealının ali təzahürü, vətəndaş cəmiyyətinin yetkinliyinin əsas meyarı kimi qəbul edən hər bir dövlət sağlam gələcəyi naminə körpələrin sağlam sosial-mənəvi mühitdə böyüməsinə çalışır.

Dövlətin hüquq sisteminin əsasını təşkil edən konstitusiya və qanunlarla uşaq huquqlarına etibarlı təminat mexanizmlərinin yaradılması isə, ilk növbədə, onların layiqli, firavan yaşayış səviyyəsinin, təlim-tərbiyəsinin, təhsilinin, sosial müdafiəsinin, sağlamlığının yüksək səviyyədə təşkilini nəzərdə tutur.

Məhşur rus yazıçısı Fyodor Dostayevskinin sözlər ilə desək "Uşaqlarsız, bəşəriyyəti belə sevmək olmazdı".
Kitabxanaçının çıxışından sonra uşaqlar S.S. Axundovun "Qaraca qız"filminə tamaşa edir.
https://www.youtube.com/watch?v=2NjwYkIVmmk
Kinolentdə Tutu adlı xeyirxah və cəsarətli yetim bir qaraçı qızının faciəli taleyindən danışılır.
Tədbirin sonunda isə məktəblilər dünya ədəbiyyatının sevilən simasına çevrilmiş Viktor Huqonun Kozetta hekayəsindən hissələr səhnələşdirilir. İlk olaraq iştirakçılardan biri səhnəyə yaxınlaşaraq əsər haqqında məlumata keçid alır.
**I İştirakçı:** Klassik fransız nəsrinin böyük ustadı, qələmə aldığı ölməz "Səfillər" romanı ilə dil sərhədlərini aşıb keçən Viktor Hüqo XIX əsr dünya ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri kimi tanınır. "Kozetta" – böyük yazıçının məşhur "Səfillər" romanından bir parçadır. Azğın meyxanaçıların əlinə keçən balaca qızın – Kozettanın acı həyatı oxucuya özgə taleyinə yanmaq, başqalarının dərdini özününküləşdirmək kimi insani keyfiyyətlər aşılayır. Anası ağır həyat şəraitində ömür sürür; qızı gələcəkdə onun kimi səfil həyatı yaşamasın deyə, onu meyxanaçı ailəsinə verir. Ailənin evi, yeməyə bir parça çörəyi, Kozettanın dostluq edə biləcəyi azyaşlı uşaqları var. Ana imkan düşən kimi qızını bu ailədən götürəcəyini düşünür, amma reallıqlar və həyatın axarı ana ilə qızın taleyini dəyişir…
Kozetta Viktor Hüqonun 1862-ci ildə yazdığı Səfillər romanında uydurulmuş personajdır. Onun doğum adı Eufrasiyadır, lakin əsərdə bu ada qısa yer verilir. Yazıçı, atası tərəfindən tərk edilmiş dul ananın yetim övladı olaraq ona heç vaxt soyad vermir. Romanın gedişatında o, səhvən Ursule, Lark və ya Madmozel Lanoire kimi tanınır.

*Beləliklə iştirakçılar öz çıxışlarına keçid alır.*
II İştirakçı: -Adın nədir?
III İştirakçı: -Kozetta.
I İştirakçı: Yolçu diksindi.O bir də qızın üzünə baxdı, sonra əlini onun çiynindən çəkdi, vedrəni götürüb irəlilədi.
Bir azdan sonra yenidən soruşdu:
II İştirakçı: -Səni bu meşəyə su gətirməyə kim göndərib?
III İştirakçı: -Xanım Tenardye .
I İştirakçı: Yolçu səsinin ahənginə laqeyidlik verməyə çalışsada da, yenə səsi titrəyirdi.
O, soruşdu:
II İştirakçı: - Bəs xanım Tenardye nə ilə məşğul olur?
III İştirakçı: - O, mənim sahibəmdir, - deyə Kozetta cavab verdi. – Onun meyxanası var.
II İştirakçı:-Meyxanası? –yolçu təkrar soruşdu. –Yaxşı, mən gecəni elə orada qalaram. Məni ora apar.
III İştirakçı: - Biz elə ora gedirik, -deyə qız cavab verdi.
I İştirakçı: - Yolçu tez-tez gedirdi. Kozetta onunla ayaqlaşırdı. O daha yorğunluq hiss etmirdi. Bir neçə dəqiqə keçdi.Yolçu yenidən danışmağa başladı:
II İştirakçı:- Məgər xanım Tenardyenin qulluqçusu yoxdur?
III İştirakçı: - Xeyr, mənim ağam.
II İştirakçı: - Bəs sən təksən?
III İştirakçı: - Bəli, mənim ağam.
I İştirakçı: - Yenidən araya sükut çökdü. Sonra Kozetta dedi:
III İştirakçı: -Amma onun iki balaca qızı var.
II İştirakçı:- Necə qızlardır?
III İştirakçı: - Ponina və Zelma.
II İştirakçı: - Ponina və Zelma kimdir?
III İştirakçı: - Tenardyenin xanımlarıdır. Daha doğrusu onun qızlarıdır.
II İştirakçı: - Bəs bu qızlar nə edirlər?

III İştirakçı: - Eh!-deyə Kozetta ucadan dilləndi.-Onların gözəl kuklaları, hər cür oyuncaqları var. Onlar oynayırlar, əylənirlər.
II İştirakçı: - Bütün günü oynayırlar?
III İştirakçı: - Bəli, mənim ağam.
II İştirakçı: - Bəs sən?
III İştirakçı: - Mən  işləyirəm.
II İştirakçı: - Bütün günü işləyirsən?
I İştirakçı: - Qız qaranlıqda yaşla dolu gözlərini qaldırıb yolçuya baxdı və qısaca cavab verdi.
III İştirakçı: - Bəli, mənim ağam.
I İştirakçı: - Bir dəqiqə dinməyib sonra əlavə etdi:
III İştirakçı: - Bəzən işlərimi qurtarandan sonra mənə də oynamağa icazə verirlər.
II İştirakçı: - Necə oynayırsan?
III İştirakçı: - Necə gəldi. Mənə mane olmurlar. Ancaq oyuncaqlarım lap azdır. Ponina və Zelma istəmirlər ki mən onların kuklaları ilə oynayım. Mənim təkcə bax, bu uzunluqda qılıncım var.
I İştirakçı: -Qız çeçələ barmağını göstərdi...
*Dünya ədəbiyyatının ən məşhur simalarından olan Viktor Hüqonun "Kozetta" kitabını oxumaq istəyirsinizsə, Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasına gəib kitabxanamıza abunə olun.*
20 noyabr Ümumdünya Uşaq Hüquqları Gününü gənc nəslə tanıtmaq, sevdirmək, milli dəyərlərimizi, tariximizi onlara daha əyani şəkildə göstərmək üçün kitabxanada  bir sıra tədbirlər görülməkdədir. Bu tədbirlərdən biri də **oxucularla söhbət** adlanır. Tədbir *"Sağlam gələcəyə qoyulan sərmayə"* başlığı altındadır və uşaqların hüquqları və onun yaranma və qorunma yollarından  bəhs edir. Bunun üçün ilk olaraq təyin olunmaş vaxtda qonaqlar iştirakçı qismində kitaqbxanaya

gələrək tədbirdə iştıtirak edirlər. Kitabxanaçı hər kəsi salamladıqdan sonra öz çıxışına keçid alır.
***Kitabxanaçı :*** Hər gün hər saat dünyaya minlərlə, milyonlarla körpə gəlir, o anda dünya körpələşir, məsumlaşır. Zalım dünyada ilk səhv, günah etməyənə qədər bəlkə də çiyinlərimizdə mələk kimi gözəgörünməz qanadlarımız olub. Nə qədər ki, müharibələr yer üzündə cəhənnəmi əvəz edib insanları məhv etdikcə, irqindən asılı olmayaraq uşaqların həyatına son qoyulduqca, biz necə xoşbəxt ola bilərik? Belə bir deyim var: "Dünyanı uşaqlara verə bilmiriksə, heç olmasa, qəlbimizi verək". Nazim Hikmətin sözləridir: "İnsanın qanadları qəlbindədir". Bu "qanadlara" xüsusilə, uşaqların böyük mənəvi ehtiyacı var.
A.Makarenkonun uşaqlarla bağlı ən dəyərli fikirlərindən biridir: "Tərbiyə prosesi həmişə davam edir, hətta siz evdə olmayanda da". Bu, daha çox XXI əsr üçün qədər əhəmiyyət kəsb edən fikirdir. Texniki imkanların uşaqların savadlanmasında, dünyagörüşündə böyük rol oynaması danılmaz həqiqətdir, bəs, onun zərərli, neqativ təsirlərindən də istifadə olunursa, bunun qarşısını necə almaq olar? Axı, valideyn günün 24 saatını məktəbli uşağı ilə bir yerdə keçirə bilmir.
Yeri gəlmişkən qeyd edək ki, rus pedaqoqu "Pedaqoji poema", "Valideynlər üçün" kitablarının müəllifi A. Makarenkonun da XX əsrin əvvəllərində bir neçə gənc nəslin tərbiyələnib formalaşmasında zəhməti var. O, 1920-28-ci illərdə M.Qorki adına uşaq koloniyasının əsasını qoymuşdu.
**I İştirakçı:** Uşaqlar hansı hüquqlara malik olduqlarını bilməlidirlər, onlar həmçinin gərək bu hüquqları dərk etməyi və onlardan istifadə etməyi öyrənsinlər. Buna nail olmaq üçün məktəbdə uşaq hüquqlarının tədrisi sahəsində geniş çeşidli öyrənmə təcrübələrindən istifadə edilməlidir ki, bu

öyrənmə təcrübələri də DVT-nin üç əsas kateqoriyası ilə ifadə oluna bilər:

Uşaq hüquqları haqqında öyrənmə: şagirdlər hansı hüquqlara malik olduqlarını bilir və qavrayırlar (bilik və qavrayış). Uşaq hüquqları "haqqında" öyrənməyə konkret bir sinifdə konkret bir müəllimin konkret dərs bölgüsü əsasında tədrisi daxildir.

Uşaq hüquqları vasitəsilə öyrənmə: şagirdlər uşaq hüquqlarını sinif otağını və bütövlükdə məktəbi idarə edən qaydalar kimi təcrübədən keçirirlər (baxışlar, dəyərlər və bacarıqlar).

Uşaq hüquqları üçün öyrənmək: şagirdlər sinifdə və ümumiyyətlə, məktəbdə öz hüquqlarından faydalanmağa həvəsləndirilir. Bu yolla onlar gələcəkdə demokratik cəmiyyətdə məlumatlı və fəal bir vətəndaş kimi iştirak etməyə (istər məktəbdə, istərsə də sərbəst həyatda
iştirak etməyə) hazırlanırlar. Uşaq hüquqları ruhunda (uşaq hüquqları vasitəsilə) öyrənmək və demokratik cəmiyyətdə necə iştirak etməyi öyrənmək bütövlükdə məktəbin vəzifəsidir. Bütün müəllimlər və baş müəllimlər, eləcə də şagirdlər və onların valideynləri bu işə öz töhfələrini verməlidirlər.

DVT-nin bu üç öyrənmə kateqoriyası bir-birini dəstəkləyir və tamamlayır. Bu dərslikdə bunun necə baş verdiyi göstərilir.

Uşaq hüquqları "vasitəsilə" öyrənmə dedikdə, şagirdlərə
məktəbi insan və uşaq hüquqları normaları ilə idarə olunan bir mikro-icma kimi təcrübədən keçirməyə imkan verən həssas tədris metodlarının seçilməsi nəzərdə tutulur. Misal üçün, uşaq ona bir şəxs kimi hörmət edildiyini, nə isə müzakirə edilərkən və ya qərar qəbul olunarkən onun fikrinin nəzərə alındığını hiss etməlidir. Təcrübə real həyatda öz əksini tapmalıdır, real həyatdakı təcrübə isə insan və uşaq hüquqları haqqında məlumatlı olmaq və bu barədə

düşünməklə birbaşa bağlıdır. İnsan və uşaq hüquqları haqqında məlumatlı olmağın və bu barədə düşünməyin yolu isə uşaq hüquqları "haqqında" öyrənməkdən keçir.
Nümunələr əsasında öyrənmək (induktiv yanaşma).
Bu dərslikdə nümunələr əsasında tədrisin klassik induktiv yanaşmasından istifadə olunur.

20 noyabr Ümumdünya Uşaq Hüquqları Günü ilə əlaqədar olaraq, kitabxanada keçiriləcək tədbirlərdən biri *də "Mən hüquqlarımı bilirəmmi?"* adlı **rəy sorğudur.**
Tədbir kitabxananın aşağı yaş oxucuları arasında keçirilir. Tədbirin keçirilməsində əsas məqsəd uşaqların öz hüquqlarını bilmələrinin vacibliyini önə çəkmək üçün keçirilir. Tədbirdə kitabxananın nağıl otağına toplaşan azyaşlı məktəblilər kitabxanaçı tərəfindən 20 noyabr Ümumdünya Uşaq Hüquqları Günü haqqında məlumatlandırılır və uşaqların bu yöndə bilik gücünü artırmaq məqsədi ilə sorğu vərəqələri paylanılır.
**Kitabxanaçı:** Müdriklər demişlər ki, bir məmləkətin yüksəlişi, inkişafı ailəyə məhəbbət, uşaqlara sevgi və qayğı hissləri ilə bağlıdır. Həqiqətən cəmiyyətin inkişafında ailə və ailədə verilən tərbiyə cəmiyyətin inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Ailə dövlətin təməli olduğu kimi, insanlığın, bəşəriyyətin də davamı üçün çox önəmli bir ünsür, hamının rahatlıqla sığınıb isindiyi, sevdiyi bir ocaqdır. Ailənin necə olması, hansı təməllər üzərində qurulması, inkişafı, övladların tərbiyəsi millətin və dövlətin gələcəyinin əsas şərtlərindəndir.
Uşağa sevgi hələ o dünyaya gəlməmiş başlayır və o dünyaya sevgi ilə gəlir və ilk gündən ananın sevgisini hiss edir və sevgi ilə əhatə olunaraq böyüyür, inkişaf edir. Belə bir sevgi mühiti uşağın normal, ahəngdar bir insan kimi böyüməsini

təmin edir, gələcək uğurlarının təminatçısı olur. Sevgi ilə böyüyən uşaq da gələcəkdə insanları sevir, onlara hörmət edir və pozitiv insan kimi formalaşır. Sevgi özündə bir enerji daşıyır ki, bu enerji insanı irəliyə, yüksəyə, yaxşıya istiqmətləndirir və uğurlu işlərə sövq edir. İnsanı digər canlılardan fərqləndirən ən mühüm xüsusiyyət elə sevgidir. Bu sevginin içində hörmət, qayğı, məhəbbət, himayə etmək vardır. Ailədə uşağın dünyaya gəlməsi ailəyə sevinc, fərəh bəxş edir ki, bu sevinci heç nə əvəz edə bilməz.

Anası tərəfindən uşağın qucaqlanması, bağrına basılması onlar arasında dəri, bədən, göz təması yaranırsa, bu uşaqda xoş emosional hiss və duyğular yaradır və uşaq özünü təhlükəsiz, rahat hiss edir. Bu sevgi hissləri ilk növbədə uşağın zəkasını, ağlını, qabiliyyətlərini, gələcəkdə insanlarla düzgün rəftarını, ünsiyyətini inkişaf etdirir. Bir körpə nə qədər çox fərqli insan tərəfindən sevilərsə, toxunularsa, o qədər sürətli inkişaf edir. Uşaqlar nə qədər kiçikdir, bir o qədər həssas və emosionaldırlar. Onlar daha çox ağılla deyil, hiss və duyğularla hərəkət edirlər. Deyə bilərik ki, uşağa sevgi, məhəbbət hissləri, hörmət və qayğı nə qədər çox olarsa uşaq bir o qədər sağlam, gümrah və normal böyüyəcəkdir. Uşağın tələbatları içində ən çox tələbat sevgiyədir, daha sonra onun başqa tələbatları - yemək, içmək və s. gəlir. Bəzi hallarda isə valideyn uşağın hər cür tələbatını ödəyir, amma sevgi, məhəbbət, xoş ünsiyyət arxa planda qalır.

Uşaqların böyüməsinə və yaş dövrlərinə uyğun olaraq onlarla oynamaq lazımdır. Oyun uşağın ağlının, zəkasının, nitqinin və mənəvi, əxlaqi keyfiyyətlərinin inkişafında əvəzolunmaz bir vasitədir. Uşaq oynamasa inkişaf edə bilməz. Böyüklər uşaqlarla oynamağı bacarmalıdırlar. Uşaq danışmağa başlayanda və ya hərəkətə gəlib bizə öz hiss və davranışlarını, sevinc və fərəh hisslərini bildirirsə, böyüklər buna laqeyd

qalmamalı eynilə sevinc və ruh yüksəkliyi ilə onları sevib əzizləmələdirlər.

Uşaqlarla müxtəlif sevimli, xoş səs tonları ilə danışmalıyıq. Əzizləyici sözlər -ürəyim, balam və s. kimi sözləri tez - tez işlətməliyik. Bəzən sevimli, bəzən mehriban, bəzən də uşağa məxsus zərif, səmimi səs çıxışları ilə ünsiyyət qurmalıyıq. Uşaqaların gözlərinin içinə baxaraq, saçlarını tumarlayaraq, öpərək xoş sözlər deməliyik. Üzdəki hər əzələ hərəkətini gördüklərini nəzərə alaraq, mimikalarla ona müxtəlif xoş, rahatladıcı jestlər etməliyik. Bunlar ailədə olmadıqda, əvəzində uşaqlara qabalıq, kobudluq göstərildikdə, onlar təhqir və fiziki cəzalara məruz qaldıqda özlərini atılmış hiss edirlər və qaba, kobud, qaraqabaq insanlar kimi böyüyür, ətrafdakılara zərər verirlər.

Ananın uşağa sevgisi təbii hal olduğu kimi, bu sevginin özü də tərbiyənin məhsuludur deyə bilərik. Sevgi özü də kor koranə olmamalıdır. Belə çıxmasın ki, uşağa hər şeyə icazə verməli, heç bir tələb göstərilməməli, onun hər arzusu,

istəyi yerinə yetirilməldir. Yaxud da uşağın hər bir xoş olmayan istəyi, nöqsan hərəkəti cəzalandırılmalıdır. Belə düşünmək səhv olardı. Atalarımız yaxşı demişdir: "Uşağım əzizdir, tərbiyəsi ondan da əzizdir. " Burada da ən düzgün yol yenə sevgidir. Uşağı sevərək tələb və istəklərini yerinə yetirməli, arzu olunmayan tələblərini isə yenə de sevərək başa salmaq lazmdır. Cəza uşağı müstəqil düşüncədən azad edir, şüurlu fəaliyyətini ləngidir, yaxşı və pisi özü deyil, başqasının tələbi və iradəsi ilə anlayır və yerinə yetirir. Bəzən uşaqlar evdə özünü yaxşı aparmır, nadinclik edir, qışqırır, bağırır. Əgər böyüklər də uşaqların üstünə qışqırıb bağırsa, təhqir etsə, yaxud cəzalndırsa uşağın bu davranışı düzəlməyəcəkdir. Düzəlsə də qorxu gücünə olacaqdır. Yaxşısı budur bir az səbrlə ona sevgi, qayğı və hörmət

göstərilsin, ona bu hərəkətin düzgün olmadığı sakitcə başa salınsın. Uşaq başa düşsün ki, onu sevirlər, ona hörmət edirlər.
Uşaq ailədə böyüdükcə tədricən valideynlər, xüsusilə ana uşağı ümumi şəkildə sevmək deyil, uşağın xüsusi keyfiyyətlərini, qabiliyyətlərini sevməyə başlayır. Bu sevgi, məhəbbət uşağın müəyyən xarakterik keyfiyyətlərinin, istedad və qabiliiyyətlərinin formalaşmasına kömək edir, müsbət davranış və əxlaqi keyfiyyətlər yaradır. Uşaq evin güzgüsüdür, - demişlər. O sevgi və məhəbbəti o dəqiqə özündə əks etdirir və özü də sevgi və məhəbbəti öyrənir. Uşaqlar böyüdükcə hiss edirlər ki, valideynlər onları necə olduğu kimi deyil, yaxud sadəcə olaraq ailənin uşağı olduğuna görə deyil, daha çox yaxşı hərəkət və davranışlarına görə, məktəbdə yaxşı oxumalarına görə, sözə baxan olduğuna görə sevirlər. Valideynlər də uşaqlarının həyatda mövqe qazanmasına, irəli getməsinə, nüfuz qazanmasına çalışırlar. O zaman uşaqlarda da valideynə sevgi məhəbbəti buna görə yaranır ki, valideynləri onlar üçün çalışırlar. O zaman nəticə belə olur: Sən yaxşı olduqca səni sevəcəyəm. Sən də mənə qayğı göstərdikcə səni sevəcəyəm. Bu artıq təmənnalı sevgidir. Bu heç də yaxşı nəticə olmayacaqdır.Uşaqlara sevgi və məhəbbət səmimi, təmənnasız olmalı və nəyə görəsə onları sevmək və uşaqlar da valideynləri onların övladına nə etdiklərinə görə sevməsi düzgün sayılmaz. Həqiqi, səmimi, təmənnasız sevgi ilə əhatə olunmuş ailə xoşbəxt ailədir ki, belə ailədən də xoşbəxt uşaqlar, layiqli vətəndaşlar çıxır. Ailədə uşaqların düzgün tərbiyəsi həm ailə üçün, həm də cəmiyyət üçün əhəmiyyətlidir. Görkəmli pedaqoq A.S. Makarenko deyirdi ki, düzgün tərbiyə bizim xoşbəxt gələcəyimizdir, pis tərbiyə bizim bədbəxtliyimiz, gələcək göz yaşlarımız, əzablarımızdır.

Uşağı sevməklə bərabər, onların sevimli olmalarını da öyrətmək lazmdır. Daha sonra onlar da başqalarına sevgi və məhəbbət göstərəcəklər. İnsan əvvəlcə öz valideynlərinə sevgi göstərir, sonra həyat yoldaşına, sonra uşaqlara, daha sonra nəvələrə öz sevgi və məhəbbətini bildirir.
Uşaqların şəxsiyyəti 3-6 yaş arasında sürətlə formalaşmağa başlayır. Bu yaşda olan uşaqlar çox həssas və diqqətlidirlər. Onlar hər şeyi aydın görür, eşidir, duyur, hiss edirlər. Bu yaşda uşağa göstərilən hər hansı bir fiziki, psixi zorakılıq ömür boyu unudulmaz. Ailədə tez-tez döyülən uşaqlar özgələşir, kobudlaşır, qəzəbli, kinli və əsəbi olurlar.
Hər bir ailənin dəyişməz, pozulmaz qanunları, adət və ənənələri vardır. Bunların içərisəndə uşaqlara sevgi və hörmət birnci yerdə durmalıdır.
Tərbiyənin əsas təməli sevgidən başlayır. Valideynin uşağa sevgisi ən böyük tərbiyə vasitəsidir. Uşaqları sevməklə bərabər bu sevgini onlara göstərmək də, bildirmək də lazımdır. Uşaqlar onları sevdiklərini hər an duymalıdırlar.
Uşaqlara sevgi və qayğı göstərmək böyüklər üçün heç də çətin, mürəkkəb bir iş deyildir, əksinə bu çox asanlıqla başa gəlir. Bunu edən böyüklər özü də sevinir, fərəhlənir və özünü xoşbəxt hiss edir, onlar hər cür stressdən uzaq olmuş olurlar. Uşaqlar böyüklərə sevgi yaşatdıqca böyüklər xoşbəxt olurlar, böyüklərdə məşğulluq yaranır, onlara öz istəklərini necə yerinə yetirməyi öyrədir.

Təəssüf hissi ilə qeyd edək ki, bu gün dünya əhalisinin böyük hissəsi müharibələr, aclıq, qıtlıq, yoxsulluq, zülm, işgəncə, haqsızlıq, istismar, qəddar münasibət kimi səbəblərə görə əziyyət və sıxıntı içində yaşayırlar. Bu sıxıntılar içində olan insanlar arasında ən çox əziyyət çəkəni uşaqlardır. Hələ də dünyamızda aclıq və səfalət işində yaşayan, işgəncələrə, fiziki və psixi zorakılığa, istismara məruz qalan, hüququ

pozulan uşaqlar vardır. Bu gün dünyada 150 milyona yaxın uşaq heç məktəbə getmir. Silahlanma, istismar, müharibələr və münaqişələrdən ən çox zərər çəkən uşaqlardır.
İlk müharibə evdə, ailədə baş verir: Valideyn və uşaq arasında münaqişə başlayır, hətta fiziki cəza baş verir ki, bunun özünü də kiçik müharibə adlandırmaq olar. Belə münaqişələr sonralar məktəblərdə, kollektivlərdə baş verir və tədricən böyüyüyb dövlətlər arasında da yaranır ki, bu da müharibənin səbəblərindən biri ola bilir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin bütün həyatı və fəaliyyəti nəsillərə nümunə olmaqla yanaşı, ideal ailə başçısı kimi göstərdiyi örnək də misilsizdir. Onun ailə dəyərlərinə verdiyi qiymət həmişə hörmətlə xatırlanır və xatırlanacaqdır. Cəmiyyəti yaşadan və onun varlığını sübut edən ailə meyarlarına ulu öndərin öz münasibəti, öz yanaşması olmuşdur. Ulu öndərimiz H. Əliyev ailə tərbiyəsində uşaqlara xüsusi diqqətlə, onlara sevgi və məhəbbətlə yanaşmağı tələb edirdi. O deyirdi: "Ailə tərbiyəsi öz xarakterinə görə nadir bir haldır. Bu tərbiyə ata-ananın övlada məhəbbəti və uşaqlarında ata-anaya bu cür hissləri kimi bir mənəvi əsas üzərində qurulur...
1989-cu ildə qəbul olunmuş Uşaq Hüquqları Konvensiyanın əsas ideyası uşaq şəxsiyyətidir. Konvensiyanın mühüm prinsipi uşaqlara hörmət etmək, onların hüquqlarının qorunmasıdır. Uşaqlar irqindən, dərisinin rəngindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən asılı olmayaraq dünyanın hər yerində öz hüquqlarından istifadə etməlidirlər. Bu hüquqların qorunması ilk növbədə ailədən başlayır. Ailə uşaqların mənəvi,əxlaq tərbiyəsinə böyüк təsir göstərir, onda vətənpərvərliк hissi, Vətənə sevgi, əməyə məhəbbət tərbiyə etməкlə, dostluq, yoldaşlıq, böyüкlərə hörmət,doğruçuluq, sadəlik və təvazöкarlıq, qənaətçilliк,

intizamlılıq və s. кimi müsbət insani кeyfiyyətlər formalaşdırır. Ailədə bu keyfiyyətlərin uşaqlarda tərbiyə olunması öz- özünə baş vermir. Ailə başçıları uşaqların tərbiyəsinə xüsusi fikir verməli, ilk növbədə onlar yaxşı davranışları ilə uşaqlara nümunə olmalıdırlar.

Unutmayaq ki, sevgi və hörmət üzərində qurulan ailədə daim qarşılıqlı anlaşma, hörmət hökm sürür və çətinliklər yaşanmır. Çünki problemlərin öhdəsindən gəlmək, sevən ailə üçün çətin deyil. Belə bir müdrik fikir var: “Dünyanı sevgi qurtaracaq”.

Ailə mühitində daim sevgi və məhəbbət olmalı, uşaqlar da belə bir mühitdə yaşamalı, özləri də ilk növbədə ata və ana sevgisi, məhəbbəti, qayğısı ilə əhatə olunmalıdırlar. Övlad öz valideynlik haqqını ata-anadan öyrənir. Ata-ana nə qədər anlayışlı, mülayim rəftar etsə, övlad da mənəvi-əxlaqi keyfiyyətləri onlarda görüb-götürür. Uşaq anadan istiqanlılıq, mehribanlıq götürməklə yanaşı atadan da güc və qüdrətlilik dərsləri almalıdır. Mehriban ana uşağa nə dərəcədə təsir edirsə, güclü ata obrazı da o qədər önəmlidir. Deməli, ailə qarşılıqlı hörmət, məhəbbət üzərində qurulubsa, onun təməli də möhkəm olacaqdır.

Övladlarımız qarşısında ən əsas vəzifələrimizdən biri onlara hərəkətlərimizlə gözəl nümunə olmaq, onları layiqili vətəndaşlar, səmimi, mehriban, ədalətli, humanist insanlar kimi yetişdirməkdir.

Biz böyüklər uşaqların qabiliyyət və bacarıqlarını, istedadlarını daim öyrənməli, buna müvafiq onlarla xüsusi tədbirlər, hazırlıqlar aparmalı, onların istedad və qabiliyyətlərinin inkişafına şərait yaradılmalıdır. Çünki onlar bizim özümüzdən sonra qoyacağımız ən dəyərli miras, ən dəyərli sərvətdir.

Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimzin necə olması bu günkü uşaqlardan aslııdr. Ona görə bu günkü uşaqlar, dünənkindən, sabah isə bu günkündən daha yaxşı, daha hazırlıqlı və daha bilikli olmalıdırlar. Bu cəhətdən biz onların təlimi və tərbiyəsi üçün, istedadının inkaşfı üçün xüsusi şərait yaratmalıyıq, onların ehtiyaclarını hər vasitə ilə ödəməliyik. Yaxşı nə varsa - uşaqların olmalıdır. Onları layiqli vətəndaş kimi böyütmək istəyiriksə, cəmiyyət üçün dəyərli insan olmasını arzulayırıqsa, dünyaya gəldikləri gündən bunun üçün əlimizdən gələni onlar üçün etməliyik.

Kitabxanaçının çıxışından sonra rəy sorğusu məktəblilərə paylanılır. Suallar aşağıdakılardır:

**1.Sual:** Hüquq nədir, anlayışı və mahiyyəti nədən ibarətdir?

**1. Cavab:** Hüquq — davranışı tənzimləmək üçün sosial və ya hökumət institutları tərəfindən yaradılmış və tətbiq edilə bilən qaydalar toplusu, onun dəqiq tərifi uzun müddətdir müzakirə olunan bir məsələdir.

**2. Sual:** "Hüquq" sözü dilimizə haradan və neçə keçmişdir?

**2.Cavab:** "Hüquq" sözü ərəbcədən "haqq" sözünün çoxluğunu ifadə edir. Bu söz ingilis dilində "right" sözünə uyğun gəlir.

3.Sual: ".... ailənin, xalqın, dövlətin ən qiymətli sərvətidir." Cümləsində nöqtələrin yerini doldurun.

3. Cavab: Uşaq .

4. Sual: Hansı uşaq nağılında ögey ana öz qızlarını qonaqlığa aparır, ögey qızını isə evdə qoyaraq ev işləri görməsini istəyir?

**4 Cavab:** "Göyçək Fatma", "Zoluşka"

**Sual 5:** "Ulu öndər Heydər Əliyev uşaq hüquqlarının müdafiəsinin davamlılığı, onun məzmununun zənginləşdirilməsi məqsədilə .... tarixində "Uşaq hüquqları

haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul etmişdir." ... Nöqtələrin yerinə müvafiq tarixi yerləşdirin.
**Cavab: 5.** 1998-ci il 19 may ayı.

**Sual: 6.** Yer üzündə uşaqlar var
Rəngi qara, rəngi sarı.
Gəlin dostlar, salamlayaq
Bu gün bütün uşaqları...
şeiri hansı Azərbaycan ədibinə məxsusdur?
**Cavab: 6.** Zeynal Cabbarzadənin "Yer üzündə uşaqlar var"
**Sual: 7.** Uşaq hüquqlarının pozulmasına dair hansı kitabları (əsərləri) oxumusunuz?
**Cavab: 7**. ..........................................................................
Sual:8. Hüquqlarınızı tanıyırsınızmı? Bu haqda bildiklərinizi yazın.
Cavab:8. ....................................................................
**Sual : 9.** Uşağın ailədə yaşamaq hüququ. Bu cümləni necə başa düşürsünüz?
**Cavab:9.** Uşağın ailədə valideynləri ilə birgə yaşamaq, onlardan qayğı görmək hüququ vardır. Qanunvericiliklə nəzərdə tutulmuş hallardan başqa valideynlərin istəyinə zidd olaraq uşağı onlardan ayırmaq qadağandır.
**Sual: 10.** "Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır". Bu müdrik fikirlər hansı dahi şəxsiyyətə aiddir?
**Cavab: 10.** Ümummilli lider Heydər Əliyev

**F.Köçərli adına Respublika Uşaq kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

**Kitablarda**

**Adilov N**. Müasir beynəlxalq hüquq və Azərbaycan Respublikası qanunvericiliyində uşaq hüquqlarının müdafiəsi : Nəzəri və praktiki məsələlər. - Bakı : Aypara-3, 2010. - 288 s.

Azərbaycan Respublikasında uşaqların sosial və hüquqi müdafiəsi:parlament ölçüsü : Seminar materialları toplusu; Bakı, 31may 2021-ci il. - Bakı : Şərq-Qərb, 2021. - 95 s.

Çoxşaxəli beynəlxalq hüquq. - Bakı : Elm və Təhsil, 2013. - 324 s.

İnsan hüquqları. - Bakı : Şirvannəşr, 2005. - 571 s.

Uşaq hüquqları hamı üçün: Uşaqları dinləyək, onların iştirakını təmin edək! : 20 noyabr1989-cu ildə qəbul edilmiş BMT-nin "Uşaq Hüquqları haqqında Konvensiyası"nın "20 illiyi"nə və Azərbaycan Respublikasında "Uşaq ilinə" həsr olunur. - Bakı : [s. n.], 2009. - 128 s.

Uşaq hüquqları üzrə pilləli tədrislə bağlı seçilmiş mövzular. - Bakı : [s. n.], 2009. - 288 s.

**Uşaq** Hüquqlarına **dair** Məlumat Materialları və Uşaq Hüquqları sahəsində Mütəxəssislər və Təlimçilər üzrə Bələdçi / UNİCEF. Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı Avropa Birliyi. - Bakı : [s. n.], 2006. - 32 s.

**Dövrü mətbuatda**

**Abdullayev M**. Ulu öndər uşaqları sonsuz məhəbbətlə sevirdi // Xalq qəzeti. - 2019. - 1 iyun. - № 119. - S. 9.

**Abdullayeva N**. Uşaq hüquqlarının həyata keçirilməsinə dair məlumat bankı yaradılır // Palitra. - 2012. - № 132. - S. 15.

**Ağa N.** Beynəlxalq uşaq hüquqları və jurnalistika peşəkarlığı // İşıq. - 2017. - № 2. - S. 58-61.
**Ağayev F**. Uşaq hüquqları aylığına yekun vurulmuşdur // Respublika. - 2019. - 28 noyabr. - № 263. - S. 5.

**Aslanova R.** Uşaq hüquqlarının qorunması beynəlxalq problemdir // Təhsil problemləri. - 2013. - 01-07 fevral. - № 9/10. - S. 2.

**Atakişiyeva G.** Uşaq hüquqları Azərbaycanda : maarifçilərin başlatdığı yol // Azərbaycan Müəllimi. - 2017. - 27 oktyabr. - № 41. - S. 7.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Ailə Məcəlləsinin tətbiqi ilə əlaqədar bəzi məsələlər haqqında" 2001-ci il 4 iyul tarixli 519 nömrəli, "**Uşaq** hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (23 dekabr 2019-cu il) // Respublika. - 2020. - 10 yanvar. - № 3. - S. 2.

Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "**Uşaq** hüquqları haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş **uşaq**ların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikaının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (3 dekabr 2019-cu il) // Respublika. - 2020. - 9 yanvar. - № 2. - S. 2.

Azərbaycanda uşaqlara qarşı zorakılıqla mübarizə sahəsində görülən işlər digər ölkələr üçün nümunə ola bilər : Milli Məclisdə Dünyada **uşaq hüquqları**nın qorunması və onlara qarşı mübarizə hallarına Azərbaycanda qoşulur // Azərbaycan. - 2012. - 1 may . - № 94. - S. 4.

**Bağırova Ş.** Cümhuriyyətdə uşaq xeyriyyəçiliyi məsələləri // 525-ci qəzet. - 2020. - 5 fevral. - № 13. - S. 19.

Bahar Muradova: Azərbaycan dövləti uşaqların hüquqlarının qorunmasına xüsusi diqqət və qayğı ilə yanaşır // Respublika. - 2016. - 16 dekabr. - № 279. - S. 4.

**Dövlət qurumları** uşaq hüquqlarının qorunmasında səmərəli fəaliyyət göstərirlər : Azərbaycan uşaqlarının IV Ümumrespublika forumu keçirilib // İki sahil. - 2017. - 21 noyabr. - № 212. - S. 8.

**Əliyev R**. Azərbaycanda uşaq hüquqlarının qorunmasına xüsusi önəm verilir : Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Rauf Əliyevin www.yap.org.az saytına müsahibəsi // Yeni Azərbaycan. - 2016. - 2 iyun. - № 98. - S. 6.
**Əsədova N**. Uşaqlar bizim gələcəyimizdir // Xalq qəzeti. - 2019. - 1 iyun. - № 119. - S. 9.

**Fərəcova Z.** Böyüklərin məhv etdikləri dünyanın balaca, məsum sakinləri // Azərbaycan : qəzet. - 2022. - 4 iyun. - № 116. - S. 6.

**Fərəcova Z**. Müharibə dövrünün uşaqları // İşıq. - 2020. - № 3. - S. 58-61.

**Hüseynova H**. Uşaq hüquqları: dünəndən bu günə // Yeni Azərbaycan. - 2018. - 5 iyun. - № 106. - S. 5.

**Hüseynova H.** Uşaq hüquqlarının müdafiəsi dövlətin prioritet istiqamətlərindəndir : 1iyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür // Respublika. - 2014. - 1 iyun. - № 114. - S. 2.

**Hüseynova H**. Uşaq hüquqlarının müdafiəsi müasir dövrün prioritetlərindəndir // Respublika. - 2019. - 1 iyun. - № 119. - S. 6.

**Hüseynova H**. Uşaq hüquqlarının təmin olunması dövlətin əsas məqsədləri sırasındadır : Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın www.yap.org.az saytına müsahibəsi // İki sahil. - 2017. - 1 iyun. - № 96. - S. 14.

**İsmayılqızı X**. Uşaqlara müharibəsiz planet bəxş edək // İki sahil. - 2022. - 1 iyun. - № 95. - S. 6.

**Qurbanov Ə**. "Uşaqlara qarşı zorakılığın aradan qaldırılması // Savalan. - 2010. - 26 30 noyabr. - N 56/57. - S. 5.

**Məhərrəmova T**. Uşaq nikahları // Kaspi. - 2014. - 16 yanvar. - № 7. - S. 10.

**Mehralı L**. Qarabağ müharibəsinin böyüməyən uşaqları və ya uşaq hüquqlarına nəzirə // Səs. - 2023. - 3 iyun. - № 97. - S. 5-6.

**Mənsimov E.** Azərbaycanda uşaq hüquqlarına dövlət tərəfindən təminat verilir // Azərbaycan : qəzet. - 2015. - 19 noyabr. - № 254. - S. 8.

**Milli Məclisdə** "Uşaqlara qarşı zorakılıqla mübarizə" mövzusunda "dəyirmi masa" keçirilmişdir // Azərbaycan. - 2011. - 6 aprel. - № 71. - S. 5.

**Musayeva Y**. Dünyanı uşaqlara verək : Körpələrin sevinci Mehriban xanım Əliyevaya ən dəyərli hədiyyədir // Azərbaycan : qəzet. - 2019.- 20 noyabr. - № 257. - S. 7.

**Müşfiqə**. Cocuqların günahı nə? : Hər 6 uşaqdan 1-i müharibə şəraitində yaşayır // Yeni Azərbaycan. - 2022. - 4 iyun. - № 98. - S. 7.

**Nərimanoğlu M**. Onlar səadət və xoşbəxtlik rəmzi olsalar da... // Azərbaycan : qəzet. - 2019. - 20 noyabr. - № 257. - S. 7.

**Ömərov V.** Beynəlxalq sənədlər uşaq hüquqları haqqında // Səs. - 2018. - 29 iyun. - № 120. - S. 13.

**Ömərov V.** İnsan alveri ilə mübarizə sahəsində QHT-lərin rolu // Səs. - 2020. - 14 fevral. - № 30. - S. 15.

**Ömərov V**. Küçə uşaqları problemi və uşaqların hüquqlarının müdafiəsinə dair dövlət siyasəti // Səs. - 2018. - 14 iyul. - № 131. - S. 15.

**Ömərov V**. Qərbdə uşaq hüquqlarının vəziyyətinə dair // Səs. - 2018. - 1 avqust. - № 143. - S. 15.

**Ömərov V.** Uşaq alveri anlayışı // Səs. - 2020. - 8 fevral. - № 25. - S. 15.

**Ömərov V**. Uşaq hüquqları beynəlxalq qanunlarda // Səs. - 2018. - 3 iyul. - № 122. - S. 15.

**Ömərov V.** Uşaq hüquqları haqqında Konvensiyada uşaq hüquqlarının müdafiəsi məsələləri // Səs. - 2018. - 28 iyun. - № 119. - S. 13.

**Ömərov V**. Uşaq Hüquqları Komitəsi // Səs. - 2018. - 30 iyun. - № 121. - S. 13.

**Ömərov V**. Uşaq hüquqlarının müdafiəsi sahəsində beynəlxalq nəzarət // Səs. - 2018. - 22 iyun. - № 116. - S. 15.

**Ömərov V**. Uşaq hüquqlarının müdafiəsi tarixindən // Səs. - 2018. - 1 iyun. - № 104. - S. 15.

**Ömərov V**. Uşaq hüquqlarının müdafiəsinin əsas istiqamətləri // Səs. - 2018. - 15 avqust. - № 153. - S. 15.

**Ömərov V.** Uşaqların hüquqlarının müdafiəsi günü // Səs. - 2018. - 31 may. - № 103. - S. 15.

**Ömərov V**. Uşaqların hüquqlarının müdafiəsinə dair BMT sənədləri // Səs. - 2018. - 15 iyun. - № 114. - S. 15.

**Ömərov V**. Uşaqların istismarı // Səs. - 2020. - 18 fevral. - № 32. - S. 15.

**Ömərov V.** Uşaqların öz hüquqlarını bilmək və öyrənmək yolları // Səs. - 2018. - 30 iyun. - № 121. - S. 15.

**Ömərov V.** Uşaqların sağlamlıq və təhsil hüququ // Səs. - 2018. - 17 iyul. - № 132. - S. 15.

**Ömərov V.** Uşaqların tərbiyəsi və hüquqlarının vəhdəti // Səs. - 2019. - 12 iyul. - № 124. - S. 15.

**Ömərov V**. Uşaqların tibbi hüquqları // Səs. - 2019. - 22 iyun. - № 111. - S. 15.

**Ömərov V.** Valideyn və uşaqların münasibətlərinin tənzimlənməsi // Səs. - 2018. - 13 iyul. - № 130. - S. 15.

**Rəşid L**. Uşaqlar - dünyanın ən böyük // Xalq qəzeti. - 2021. - 1 iyun. - № 111. - S. 8.

**Rzalı R.** Nişangaha çevrilən Azərbaycanlı uşaqlar : Uşaqlara qarşı ermənilər tərəfindən törədilmiş zorakılıqları // Azərbaycan. - 2012. - 5 iyun. - № 122. - S. 6.

**Süleymanova E.** Gələcəyimiz naminə uşaqlara qayğı // Respublika. - 2016. - 20 noyabr. - № 257. - S. 4.

**Süleymanova E**. Uşaq hüquqlarının müdafiəsi dövlət siyasətinin prioritet istiqamətidir : "Uşaq hüquqları" aylığına yekun vurulmuşdur // Respublika. - 2015. - 20 noyabr. - № 255. - S. 7.

**Süleymanova E**. Uşaq hüquqlarının müdafiəsi və təşviqi dövlətimizdə ali məqsədlərdəndir // Respublika. - 2018. - 23 noyabr. - № 262. - S. 6.

**Süleymanova E**. Uşaqların hüquqlarının müdafiəsi hər birimizin borcudur // Respublika. - 2017. - 19 noyabr. - № 254. - S. 4.

**Şahsevənli Z**. Dövlət uşaq siyasəti milli strategiya kimi formalaşmışdır : Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova ilə müsahibə / yazdı Z. Şahsevənli // Respublika. - 2013. - 1 iyun. - № 117. - S. 8.

**Turan T**. Müharibənin uşaqları // 525-ci qəzet. - 2019. - 9 fevral. - № 27. - S. 24.

Uşaq Hüquqları **Konvensiyasının** əsas prinsipləri Azərbaycanda tətbiq edilir // Savalan. - 2015. - 27-30 noyabr. - № 80. - S. 1.

**Yaqubzadə F**. Gələcəyimizin təminatı uşaqlar // Füyuzat. - 2011. - № 3. - S. 60-62.

# Gələcəyimiz olan uşaqları hüquqları ilə qoruyaq

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**